EVDƏ QAL,
SAĞLAM QAL!

**Prezidentə yazırlar: “Biz Sizinlə güclüyük, cənab Ali Baş Komandan!”**



Bax 8

**Dünyanın aparıcı KİV-ləri Qoşulmama Hərəkatının Təmas Qrupu formatında Zirvə görüşünü geniş işıqlandırır**




Bax 3



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir


# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 076 (6041) 6 may 2020-ci il. Qiyməti 40 qəpik

“Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


## Azərbaycan dövlətlər və xalqlar arasında körpü yaradır

*Ölkəmizdə koronavirusa qarşı aparılan mübarizə beynəlxalq səviyyədə təqdir olunur*




***Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində Azərbaycan nəinki regionun lider dövlətinə, eyni zamanda beynəlxalq aləmdə söz sahibinə çevrilib, dünya birliyindəki yeri daha da möhkəmlənib. Ümumiyyətlə, hazırkı dövrə qədər ölkəmizdə keçirilən çoxsaylı beynəlxalq əhəmiyyətli...***

Bax 2

### “Karantin rejiminin yumşaldılması təhlükənin sovuşması demək deyil”



“Azərbaycan dövləti yeni növ koronavirus infeksiyasının ölkə ərazisində geniş yayılmasının qarşısının alınması istiqamətində profilaktik və mübarizə xarakterli təxirəsalınmaz tədbirlər həyata keçirir. Şübhəsiz ki, burada başlıca məqsəd və strateji prioritet vətəndaşların sağlamlığının, təhlükəsizliyinin qorunmasıdır”. SİA-nın verdiyi məlumata görə, bu fikirləri Yeni Azərbaycan Partiyasının (YAP) İcra katibinin müavini, Milli Məclisin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov deyib.

Bax 4

### Yerevanda 40 yaşlı erməni əvvəlcə uşaqlarını, sonra özünü öldürdü

Ermənistan paytaxtında dəhşətli qətl hadisəsi törədilib. Xezerxeber.az xarici KİV-lərə istinadla xəbər verir ki, Yerevanda 40 yaşlı kişi 8 yaşlı oğlunu və 5 yaşlı qızını yaşadıqları binanın doqquzuncu mərtəbəsindən atıb. Sonradan o, özü də intihar edib...



Bax 16

### “Azərbaycan təşəbbüsləri və praktiki addımları ilə dünyada həmrəyliyin möhkəmlənməsinə töhfələr verir”



Bax 4

“Qoşulmama Hərəkatının sədri kimi cənab Prezident İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Təmas Qrupu formatında...

### Bundesliqa matçları bu tarixdə başlayır!



Futbol üzrə Almaniya Bundesliqasında bu mövsümün bərpa tarixi müəyyənləşib. Nüfuzlu "Reuters" agentliyi xəbər verir ki, futbol matçlarının mayın 15-i bərpasına qərar verilib. Bu qərarın bu gün Almaniya hökumətinin iclasında rəsmi olaraq elan...

Bax 16

### Milli Məclisin növbəti plenar iclası keçirilib

*Dünən Milli Məclisin Sədri Sahibə Qafarovanın sədrliyi ilə parlamentin növbəti plenar iclası keçirilib. İclasda Spiker gündəliyə 11 məsələnin daxil edildiyini bildirib...*



Bax 5

**Virusoloqdan xəbərdarlıq: “Koronavirusla bağlı ikinci dalğa payızda ola bilər”**



Bax 12

**Azərbaycanda sifarişli cinayətlər törədən dəstə zərərsizləşdirilib**



Bax 12

**Cinayətkarın mitinq həyasızlığı...**



Bax 13

# Azərbaycan dövlətlər və xalqlar arasında körpü yaradır

*Ölkəmizdə koronavirusa qarşı aparılan mübarizə beynəlxalq səviyyədə təqdir olunur*

***Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində Azərbaycan nəinki regionun lider dövlətinə, eyni zamanda beynəlxalq aləmdə söz sahibinə çevrilib, dünya birliyindəki yeri daha da möhkəmlənib. Ümumiyyətlə, hazırkı dövrə qədər ölkəmizdə keçirilən çoxsaylı beynəlxalq əhəmiyyətli tədbirlər bilavasitə Azərbaycan dövlətinin dünyada artan nüfuzunu təsdiq edən mühüm faktorlardır. Eyni zamanda, ölkəmizin mədəniyyətlərarası və sivilizasiyalararası dialoq mərkəzlərindən biri olmasını artıq bütün dünya qəbul edir, dünyada Azərbaycana rəğbət artır. Təsadüfi deyil ki, dünya birliyinin mütləq əksəriyyətini təşkil edən ölkələr Azərbaycanla əlaqələr qurmağa, əməkdaşlıq etməyə, qarşılıqlı faydalar götürməyə can atırlar. Azərbaycan özü də belə əməkdaşlıqda maraqlıdır, təşəbbüskar və ideyaverici qismində öz sözünü deməkdədir.***




## Prezident İlham Əliyevin Zirvə görüşünün keçirilməsi ilə bağlı təşəbbüsü üzv dövlətlər tərəfindən yekdilliklə dəstəkləndi

Bu baxımdan, Qoşulmama Hərəkatının sədri kimi Prezident İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Təmas Qrupu formatında mayın 4-də videokonfrans vasitəsilə koronavirusla mübarizəyə həsr olunmuş "COVID-19-a qarşı birlikdəyik" mövzusunda Zirvə görüşü keçirilməsini xüsusi olaraq qeyd etmək yerinə düşərdi. Belə ki, Prezident İlham Əliyevin Zirvə görüşünün keçirilməsi ilə bağlı təşəbbüsü üzv dövlətlər tərəfindən yekdilliklə dəstəkləndi və nəticədə Təmas Qrupunda coğrafi təmsilçilik və könüllü iştirak əsasında bütün regional qruplardan olan ölkələr bu görüşdə iştirak etdilər. Məhz bu baxımdan, yuxarıda qeyd edilən fikirlərin davamı olaraq qənaətə gəlmək olar ki, BMT-nin Baş Assambleyasından sonra ikinci ən böyük beynəlxalq təsisat olan və 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatına üzvlükdən qısa müddət sonra ölkəmizin sədrlik etməsi üzv dövlətlərin Azərbaycana olan etimadının və ölkəmizin beynəlxalq nüfuzunun artmasının, eləcə də Azərbaycanın qlobal səylərinin beynəlxalq ictimaiyyət tərəfindən dəstəklənməsinin parlaq nümunəsidir.

## Azərbaycan Zirvə toplantısında daha bir ilkə imza atdı!

Yeri gəlmişkən, Azərbaycan bundan əvvəl də video-konfrans formatında zirvə görüşü keçirib və Azərbaycan Prezidenti, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının sədri İlham Əliyevin təşəbbüsü ilə aprelin 10-da Türk Şurasının video-konfrans vasitəsilə fövqəladə Zirvə görüşü təşkil olunub. Xüsusilə xatırlatmaq olar ki, Türk Şurası dünya miqyasında ilk beynəlxalq təşkilatdır ki, dövlət başçıları səviyyəsində koronavirus pandemiyasına həsr olunmuş Zirvə görüşünü keçirib və müsbət nəticələr əldə olunub.

Bu baxımdan, baş tutan sonuncu Zirvə toplantısının əsas məziyyətlərindən bə əhəmiyyətli məqamlarından biri də budur ki, bu toplantıda Avropa İttifaqının rəsmisi də iştirak edib, çıxışı ilə yadda qalıb. Yəni bu faktor Qoşulmama Hərəkatının tarixində ilk dəfə baş vermiş hadisədir. Bu ilkə isə məhz Azərbaycan Prezidentinin imza atması qürurverici hadisədir. O cümlədən, Azərbaycan daim bir-biri ilə əks qütblərdə olan Qoşulmama Hərəkatı ilə Avropa İttifaqını koronavirus təhlükəsi zamanı bir araya gətirməyə müvəffəq olmaqla, birləşdirici körpü missiyasını da həyata keçirib. Beləliklə biz, əyani şəkildə Qoşulmama Hərəkatının fikir mübadiləsi, qlobal həmrəylik və əməkdaşlıq üçün səmərəli platformaya çevrildiyinin şahidi olduq.

## Prezident İlham Əliyev nümunəvi addım ataraq pandemiyaya yalnız qlobal əməkdaşlıq və həmrəylik sayəsində qalib gəlməyin mümkünlüyünü dünyaya nümayiş etdirdi

Zirvə toplantısına ehtiyacın yaranması həm də belə bir amili diqqətə gətirir ki, koronavirus pandemiyasının təhlükəsi qlobal əməkdaşlığa çağırış reallığını ehtiva edib. Daha dəqiq desək, belə bir şəraitdə dövlətlər, eləcə də bir sıra beynəlxalq və regional təşkilatlar adekvat reaksiya göstərə, beynəlxalq həmrəyliyin gücləndirilməsi ilə bağlı zəruri addımlar ata bilməyiblər. Ona görə də, hazırda qlobal liderliyə ehtiyac duyulan bir şəraitdə və vaxtda Prezident İlham Əliyev təşəbbüs irəli sürərək "özünəqapanma sindromu"nun heç kəsə xeyir gətirməyəcəyini nümayiş etdirdi və dünyanın ayrı-ayrı qitələrindən müxtəlif siyasi və ideoloji quruluşlara malik ölkələri bir araya gətirməyə nail oldu. Prezident İlham Əliyev nümunəvi addım ataraq pandemiyaya yalnız qlobal əməkdaşlıq və həmrəylik sayəsində qalib gəlməyin mümkünlüyünü dünyaya nümayiş etdirdi. Habelə, Azərbaycan öz təşəbbüsləri və praktiki addımları ilə dünyada həmrəyliyin möhkəmlənməsinə, indiki mürəkkəb şəraitdə dövlətlər və xalqlar arasında təmasların yüksəlməsinə, qlobal pandemiya ilə mübarizədə bütün səylərin səfərbər olunmasına ciddi töhfələrini verməkdə davam edir. Beləliklə, Zirvə görüşü Azərbaycana və onun liderinə dünyada olan inamın, etibarın və etimadın göstəricisidir. Buna misal olaraq, 40-a yaxın ölkənin dövlət və hökumət başçısının, xarici işlər nazirlərinin, BMT Baş Assambleyasının prezidenti, Afrika İttifaqının sədri, Ümumdünya Səhiyyə Təşkilatının Baş direktorunun iştirak etdiyi Qoşulmama Hərəkatının Təmas Qrupunun Zirvə Toplantısı da sübut edir ki, Azərbaycan Prezidenti İlham Əliyevin nüfuzu, olan inam və etibar, eləcə də etimad ən ali məqamlarda dəyərləndirilməkdədir. Misal üçün, Zirvə görüşünə BMT Baş Assambleyası sədrinin, Ümumdünya Səhiyyə Təşkilatının baş direktorunun, Afrika İttifaqı Komissiyası sədrinin qatılması, BMT baş katibi cənab Antonio Quterreşin və Avropa İttifaqının ali nümayəndəsi və Avropa Komissiyasının vitse-prezidenti cənab Cozef Borelin videomüraciətünvanlası, habelə Zirvə görüşünü təşkil etdiyi və pandemiya ilə mübarizəyə ciddi əməli töhfələr verdiyinə görə Azərbaycan Prezidentinin fəaliyyətinin təqdir olunması,dövlət başçımıza çoxsaylı təşəkkürlər bildirilməsi ölkəmizinvə onun liderinin beynəlxalq arenada yüksək nüfuzunun əyani göstəriciləridir.

O da təsadüfi deyil ki, BMT-nin Baş katibi çıxışı video müraciəti zamanı qeyd olunan problemə yeganə cavabın cəsarətli, uzaqgörən və birgə rəhbərlik olduğunu bildirib. Eyni zamanda, o, Azərbaycan Prezidentinin belə bir görüşü çağırmasına görə təşəkkürünü bildirərək BMT-nin Prezidentimizin səylərini dəstəklədiyini xüsusilə vurğulayıb. Həmçinin, Qoşulmama Hərəkatının sədri olan Azərbaycanın fəal surətdə çoxtərəfli diplomatiyanı və multilateralizmi təşviq etməsi dünya birliyi tərəfindən təqdir olunur. Qəbul olunmuş yekun bəyannamədə dəyərli və vaxtında irəli sürülmüş təşəbbüsə görə Prezident İlham Əliyevə xüsusi təşəkkürün öz əksini tapması bu gerçəkliyi bariz şəkildə sübuta yetirmiş oldu.

## Azərbaycan bir nümunə etalonuna çevrilib

Bu kimi qürurverici reallıqdan həm də belə bir nəticə hasil etmək olar ki, Azərbaycan Qoşulmama Hərəkatına Sədrliyi öz üzərinə götürərkən, beynəlxalq arenada üzv ölkələrin maraqlarının müdafiə edilməsi üçün əməli addımlar atacağına, həmrəyliyin gücləndirilməsini və qarşılıqlı dəstəyi rəhbər tutacağına dair vədlərinə qətiyyətlə əməl edir. O cümlədən, Azərbaycanın təşəbbüsü ilə keçirilən Qoşulmama Hərəkatının koronavirusa qarşı Təmas Qrupunun Zirvə Görüşü göstərir ki, ölkəmiz koronavirus pandemiyası ilə bağlı formalaşan yeni reallıqlara, yaranmış vəziyyətə çevik və adekvat reaksiya verir. Çünki Azərbaycan bir nümunə etalonuna çevrilib. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən qabaqlayıcı tədbirlər sayəsində bu gün koronavirusa qarşı ən effektiv mübarizə aparan ölkələrdən söz açdıqda Azərbaycanın adı birincilər cərgəsində gəlir, effektiv nəticələrə görə Azərbaycanda koronavirusa qarşı aparılan mübarizə beynəlxalq səviyyədə təqdir olunur.

**Rövşən RƏSULOV**

# Dünyanın aparıcı KİV-ləri Qoşulmama Hərəkatının Təmas Qrupu formatında Zirvə görüşünü geniş işıqlandırır

***Dünyanın aparıcı KİV-ləri Prezident İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Təmas Qrupu formatında mayın 4-də videokonfrans vasitəsilə keçirilmiş "COVID-19-a qarşı birlikdəyik" mövzusunda Zirvə görüşü barədə materiallara geniş yer ayırır.***




AZƏRTAC xəbər verir ki, Çin Sinxua agentliyi Prezident İlham Əliyevin nitqindən sitatlar gətirir, Azərbaycanda pandemiya ilə mübarizə istiqamətində görülən işlər, vaxtında həyata keçirilən qabaqlayıcı tədbirlər barədə məlumat verir. Bu sahədə təcrübəsini bölüşməyə hazır olan Azərbaycanın Ümumdünya Səhiyyə Təşkilatına 5 milyon dollar maliyyə yardımı ayırdığı diqqətə çatdırılır.

Zirvə görüşünü geniş işıqlandıran Malayziyanın BERNAMA agentliyi Prezident İlham Əliyevin açılış nitqində səsləndirdiyi fikir və təklifləri beynəlxalq əməkdaşlığa növbəti çağırış kimi səciyyələndirib. Prezidentin nitqinə istinadla məlumat verilib ki, pandemiya dövründə insanların sağlamlığı və əhalinin sosial müdafiəsi Azərbaycan dövləti üçün prioritet məsələlərdir.

ABŞ-da dərc olunan ispandilli "Eurasia Hoy" qəzeti Qoşulmama Hərəkatının Zirvə görüşü ilə bağlı "Azərbaycan COVID-19-la mübarizədə qlobal miqyasda həmrəylik və əməkdaşlığın gücləndirilməsinə əhəmiyyətli töhfə verir" sərlövhəli məqalə dərc edib. Məqalədə Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə görülən işlər nəticəsində koronavirusa kütləvi yoluxma hallarının qarşısının alındığı, son vaxtlar xəstəliyə yoluxanların sayı ilə sağalanların sayı arasında müsbət dinamikanın yarandığı vurğulanır. Qəzet epidemiya şəraitində iqtisadi sabitliyin təmin edilməsi, əhalinin həssas qruplarına yardımlar verilməsi, məşğulluqla bağlı problemlərin həll olunması məqsədilə böyük sosial-iqtisadi dəstək paketinin qəbul olunduğunu bildirib.

BMT-nin saytında Zirvə görüşü barədə dərc olunmuş material belə adlanır: "Qoşulmama Hərəkatının üzv ölkələri pandemiya ilə mübarizədə Ümumdünya Səhiyyə Təşkilatının səylərinə tam dəstək nümayiş etdirdilər". Zirvə görüşünün əhəmiyyətinin vurğulandığı materialda BMT-nin Baş katibi Antonio Quterreşin videomüraciətində səsləndirdiyi aşağıdakı fikirlər yer alır: Bu böhranın miqyası və mürəkkəbliyi əlaqələndirilmiş qlobal cavab tədbirləri tələb edir. Burada yeganə cavab cəsarətli, uzaqgörən və əməkdaşlığa əsaslanan rəhbərlik keyfiyyətləridir. Birləşmiş Millətlər Təşkilatına üzv dövlətlərin üçdəbirini əhatə edən Qoşulmama Hərəkatı qlobal həmrəyliyin formalaşdırılmasında əhəmiyyətli rol oynayır.

İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin Milli Xəbər Agentlikləri Birliyinin (UNA) portalında da Zirvə görüşü haqqında ətraflı məlumat dərc olunub. Sammitdə Azərbaycan Prezidentinin qlobal həmrəyliyin nümunəsi kimi BMT Baş Assambleyasının COVID-19 pandemiyası ilə bağlı dövlət və hökumət başçıları səviyyəsində xüsusi sessiyasının keçirilməsi barədə təkliflə çıxış etdiyi diqqətə çatdırılıb.

BTA (Bolqarıstan), Anadolu (Türkiyə), TASS (Rusiya), EFE (İspaniya), WAM (Birləşmiş Ərəb Əmirlikləri), İRNA (İran) agentlikləri, "Eurasiatica-news.altervista" (İtaliya), EU Politics (Avropa İttifaqı) portalları, "Nayrouz" (İordaniya), "Aldiplomacy" (Misir) qəzetləri də Qoşulmama Hərəkatının Prezident İlham Əliyevin təşəbbüsü ilə keçirilən Zirvə görüşü barədə geniş xəbərlər yayıb.

KİV-lər qeyd edirlər ki, Azərbaycan liderinin beynəlxalq əməkdaşlığa çağırışları üzv ölkələr, həmçinin BMT, Ümumdünya Səhiyyə Təşkilatı və digər təşkilatlar tərəfindən dəstəklənib və təqdir olunub. Pandemiya ilə mübarizədə qlobal həmrəyliyin və əməkdaşlığın əhəmiyyəti vurğulanıb, səyləri bütün cəmiyyət səviyyəsində müxtəlif sahələri əhatə edən, çoxtərəfli fəaliyyətə əsaslanan uzunmüddətli hazırlığa yönəltməyin vacibliyi bildirilib. Pandemiyaya qarşı mübarizədə Qoşulmama Hərəkatının oynadığı rolun danılmaz və əhəmiyyətli olduğu qeyd edilib. Vurğulanıb ki, bu virusa qarşı dünya miqyasında aparılan mübarizə siyasi sərhədlərin, hər hansı bir ideologiyanın, məfkurənin kənara qoyulmasını, birgə işləməyi tələb edir. COVID-19 dünyanın müxtəlif guşələrinin biri-birinə nə dərəcədə bağlı olduğunu göstərdi. Qoşulmama Hərəkatının Zirvə görüşü bu qlobal çağırışa zamanında verilmiş cavabdır.

Materiallarda qeyd olunub ki, Azərbaycanın bu təşəbbüsü qlobal miqyasda koronavirusa qarşı həmrəyliyin və əməkdaşlığın gücləndirilməsinə əhəmiyyətli töhfədir.















## “Pakistan Observer” qəzetində Ümummilli Liderə həsr olunmuş məqalə dərc olunub

Pakistanda nəşr edilən “Pakistan Observer” qəzetində Azərbaycanın ümummilli lideri Heydər Əliyevin anadan olmasının ildönümü ilə bağlı “Heydər Əliyev - davamlı inkişaf edən Azərbaycanın qurucusu” adlı məqalə dərc olunub.SİA-nın verdiyi məlumata görə, məqalədə Heydər Əliyevin Sovet dövründə hakimiyyətdə olduğu müddətdə və müstəqil Azərbaycanın prezidenti kimi də xalqı üçün misilsiz işlər gördüyü qeyd olunur.


Pakistan OBSERVER
Home • Top News
Top News
Heydar Aliyev-founder of steadily emerging Azerbaijan
By News desk - May 5, 2020
The role of historical figures, prominent politicians and wise heads of state in the fate of peoples and nations is

Heydər Əliyevin Azərbaycanın müstəqilliyini möhkəmləndirməklə milli birliyi təmin etdiyi, onu qoruyub saxladığı və iqtisadi inkişafı təmin etməklə güclü demokratik təsisatların qurulması üçün yorulmadan çalışdığı vurğulanır.

Məqalədə 1993-2003-cü illərdə, 10 il müddətində müasir Azərbaycanın Heydər Əliyevin rəhbərliyi altında müsbət dəyişiklik, inkişaf və rifah səviyyəsinin yüksəlməsi sahəsində uğurlu bir yol keçdiyi oxucuların diqqətinə çatdırılır. Heydər Əliyevin uzaqgörən siyasətinin Azərbaycanı dünyanın ən sürətli inkişaf edən ölkələri sırasına daxil etdiyi vurğulanır, məhz onun sayəsində Odlar Yurdunun indi Şərqlə Qərb, Şimal və Cənub arasında körpü rolunu oynadığından bəhs olunur və qlobal aləmdə Azərbaycanın böyük dövlətlərin yanında yer aldığı bildirilir.

Məqalədə Ümummilli Liderin daima Pakistana xüsusi diqqət yetirdiyi və Pakistanla Azərbaycan arasındakı münasibətləri qardaş və strateji adlandırdığından da bəhs edilir. Məqalənin sonunda Heydər Əliyevin karyerası boyu milyonlarla insanın sevgisini və hörmətini qazanan əvəzedilməz bir lider olduğu bildirilərək, onun indi həyatda olmadığını, lakin ideya və irsinin Azərbaycan xalqının yaddaşında əbədi yaşayacağı qeyd olunur. https://pakobserver.net/heydar-aliyev-founder-of-steadily-emerging-azerbaijan/

## Cəbhə bölgəsindəki hərbi hissələrin silah və hərbi texnikasının döyüş qabiliyyəti yoxlanıb



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən, Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri general-polkovnik Məhərrəm Əliyev, Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti cəbhə bölgəsindəki hərbi hissələrin silah və hərbi texnikasının döyüş qabiliyyətini yoxlayıblar.



Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, hərbi hissələrdə şəxsi heyət üçün yaradılan şəraitlə tanışlıqdan sonra hərbi hissələrin sərəncamında olan silah və hərbi texnikanın müxtəlif növlərinə baxış keçirilib.



Hərbi hissələrin birinin ərazisində inşa olunan trenajor binasına gələn general-polkovnik M.Əliyev və general-polkovnik Z.Həsənov ekipajların tank və piyada döyüş maşınlarının təlim-məşq qurğularında atış və sürücülük məşqlərini izləyiblər.

Müdafiə nazirinin əmri ilə döyüş texnikası təlim-həyəcan siqnalı ilə əraziyə çıxarılıb və tapşırıq uğurla icra olunub.

## “Karantin rejiminin yumşaldılması təhlükənin sovuşması demək deyil”



“Azərbaycan dövləti yeni növ koronavirus infeksiyasının ölkə ərazisində geniş yayılmasının qarşısının alınması istiqamətində profilaktik və mübarizə xarakterli təxirəsalınmaz tədbirlər həyata keçirir. Şübhəsiz ki, burada başlıca məqsəd və strateji prioritet vətəndaşların sağlamlığının, təhlükəsizliyinin qorunmasıdır”. SİA-nın verdiyi məlumata görə, bu fikirləri Yeni Azərbaycan Partiyasının (YAP) İcra katibinin müavini, Milli Məclisin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov deyib.

Onun sözlərinə görə, pandemiya ilə mübarizə məsələsində Azərbaycanın təcrübəsi dünya miqyasında müsbət nümunə kimi dəyərləndirilir, bir çox ölkələrə örnək göstərilir: “Xüsusilə də, dövlətimizin öz təşəbbüsləri və əməli addımları ilə hazırkı şəraitdə dövlətlər və xalqlar arasında təmasların sıxlaşmasına, qlobal pandemiya ilə mübarizədə bütün səylərin səfərbər olunmasına mühüm töhfələr verməsi yüksək qiymətləndirilir. Digər tərəfdən, Qoşulmama Hərəkatının sədri kimi Prezident İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Təmas Qrupu formatında videokonfrans vasitəsilə koronavirusla mübarizəyə həsr olunmuş “COVID-19-a qarşı birlikdəyik” mövzusunda Zirvə görüşünün keçirilməsi böyük əhəmiyyətə malikdir. Bundan öncə isə Azərbaycan Prezidenti, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının sədri İlham Əliyevin təşəbbüsü ilə Türk Şurasının videokonfrans vasitəsilə fövqəladə Zirvə görüşü təşkil olunub ki, bu da ölkəmizin bəhs olunan taleyüklü məsələ ilə əlaqədar qlobal əhəmiyyətli təşəbbüslərinin daha bir nümunəsidir. Xatırlatmaq lazımdır ki, Türk Şurası dünya miqyasında dövlət başçıları səviyyəsində koronavirus pandemiyasına həsr olunmuş Zirvə görüşünü keçirmiş ilk beynəlxalq təşkilatdır”.

YAP İcra katibinin müavini vurğulayıb ki, bütün bu faktlar Azərbaycan dövlətinin insanların sağlamlığı, təhlükəsizliyi və rifahına xüsusi diqqət yetirdiyini, eyni zamanda, bu kontekstdə qlobal səylərini əsirgəmədiyini göstərir: “Bu həm də onun ifadəsidir ki, humanizm dəyərləri və ənənələrinə əsaslanan Heydər Əliyev siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir, bu siyasətin nəticələri vətəndaşlar tərəfindən olduqca yüksək dəyərləndirilir. Dövlətimizin başçısına mütəmadi olaraq ünvanlanan çoxsaylı minnətdarlıq məktublarında əksini tapan fikirlər də bunun bariz təzahürüdür”.

“Sevindirici haldır ki, Prezident İlham Əliyevin müvafiq tapşırıqları və göstərişlərinə uyğun olaraq reallaşdırılan ardıcıl, məqsədyönlü tədbirlər müsbət nəticələr verib, başqa sözlə, ölkədə virusa yoluxma dinamikasında pozitiv tendensiya müşahidə olunmağa başlayıb. Bu hal nəzərə alınaraq ölkəmizdə aprelin 27-dən etibarən xüsusi karantin rejimində müəyyən yumşalmalar edilib. Amma karantin rejiminin yumşaldılması təhlükənin sovuşması və pandemiyaya qarşı mübarizənin bitməsi demək deyil”,-deyə Milli Məclisin komitə sədri əlavə edib.

Siyavuş Novruzov diqqətə çatdırıb ki, bəzi məhdudiyyətlər aradan qaldırıldığı üçün insanların sanitar-gigiyenik qaydalara, mövcud tələblərə riayət etməmələri yoluxmanın artmasına, xəstəliyin ikinci dalğasının başlamasına səbəb ola bilər: “Ona görə də vətəndaşlar daha məsuliyyətli olmalı, əvvəlki dövrdə olduğu kimi 2 metrlik distansiya və digər sosial təcrid tələblərinə riayət etməklə profilaktik tədbirlərə, sanitar normalara uyğun davranmalı, karantin rejiminin tələblərinə əməl etməlidirlər. Bu, hər bir vətəndaşın, cəmiyyətin və bütövlükdə xalqın sağlamlığı, təhlükəsizliyi üçün vacibdir”.

## “Azərbaycan təşəbbüsləri və praktiki addımları ilə dünyada həmrəyliyin möhkəmlənməsinə töhfələr verir”



“Qoşulmama Hərəkatının sədri kimi cənab Prezident İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Təmas Qrupu formatında videokonfrans vasitəsilə Zirvə görüşünün keçirilməsi Azərbaycan dövlətinin milli maraqlarına uyğun olan, dövlətimizin humanizm prinsiplərinə əsaslanan siyasətinin göstəricisidir”. Bunu fikirləri SİA-ya açıqlamasında “Resurs” Analitik İnformasiya Mərkəzinin rəhbəri, siyasi ekspert Rasim Quliyev deyib.

O bildirib ki, Qoşulmama Hərəkatının Təmas Qrupunun onlayn səviyyəli Zirvə görüşünün yükunları ilə bağlı qəbul edilən Bəyannamə humanizm prinsiplərinə əsaslanaraq dünyada baş verən pandemiya və onun mənfi təsirlərindən əziyyət çəkən insanlara, dövlətlərə həmrəylik nümayiş idi.

Ekspert söyləyib ki, dünya birliyinin məsuliyyətli və etibarlı üzvü kimi Azərbaycan koronovirus təhlükəsinin ilk günlərindən etibarən qlobal həmrəylik çağırışlarına dəstək verərək həm daxili ictimaiyyətdə, həm də dünya ölkələri üçün pandemiyanın yarada biləcəyi sosial iqtisadi problemlərdən əziyyət çəkəcək insanlara, ehtiyacı olan şəxslərə mərhəmət hissi ilə yanaşma nümunəsi ortaya qoydu: “Azərbaycan dövləti həm bundan öncə keçirilən Türk Şurasının, həm Ümumdünya Səhiyyə Təşkilatının, həm də Qoşulmama Hərəkatının Təmas Qrupunun videokonfranslarında bütün dünyaya ölkə siyasətinin əsasında humanizm prinsipləri, ehtiyacı olan insanlara yardım kimi nəcib əməllərin dayandığını bir daha göstərmiş oldu. Bu bizim dövlətimizin, siyasətimizin mənəvi xarakterinin təzahürüdür”.

Qoşulmama Hərəkatının sədri kimi Prezident İlham Əliyevin təşəbbüsü ilə videokonfransın ölkəmiz üçün önəmi və vacib nüanslarını açıqlayan R.Quliyev qeyd edib ki, dünyanın pandemiya səbəbindən iflic olduğu bir dövrdə Azərbaycanın bu cür təşəbbüslər irəli sürməsi ölkəmizin aktiv qlobal siyasət yürütmək imkanına malik olduğunu göstərir: “Müasir dünyada aktivlik nümayiş etdirərək müxtəlif təşəbbüslər irəli sürməklə nəticə əldə etmək üçün həm dövlətin, həm də onun Liderinin dünyada böyük nüfuzu olmalıdır. Hazırda baş verənlər həm Azərbaycan dövlətinin, həm də Prezident İlham Əliyevin dünyada böyük nüfuzundan, təşəbbüskarlığından xəbər verir”.

Ekspert əlavə edib ki, Azərbaycan öz təşəbbüsləri və praktiki addımları ilə dünyada həmrəyliyin möhkəmlənməsinə, indiki mürəkkəb şəraitdə dövlətlər və xalqlar arasında təmasların yüksəlməsinə, qlobal pandemiya ilə mübarizədə bütün səylərin səfərbər olunmasına ciddi töhfələr verir.

***Nailə Məhərrəmova***

# Milli Məclisin növbəti plenar iclası keçirilib




***Dünən Milli Məclisin Sədri Sahibə Qafarovanın sədrliyi ilə parlamentin növbəti plenar iclası keçirilib. İclasda Spiker gündəliyə 11 məsələnin daxil edildiyini bildirib.***

Gündəlik təsdiqləndikdən sonra parlament Ali Məhkəmənin və Bakı Apellyasiya Məhkəməsinin hakimlərinin təyin edilməsi, bir sıra məhkəmələrin hakimlərinin isə vəzifədən azad olunması haqqında məsələlərə baxıb. Hər üç məsələni parlamentə Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli təqdim edib.

Bildirilib ki, Azərbaycan Prezidenti tərəfindən Konstitusiyaya müvafiq olaraq və Məhkəmə-Hüquq Şurasının təklifləri nəzərə alınmaqla Ali Məhkəmənin və Bakı Apellyasiya Məhkəməsi hakimlərinin vəzifəyə namizədliyi irəli sürülüb. Bu məsələ komitənin iclasında ciddi müzakirə olunub, son dövrlərdə məhkəmə-hüquq islahatları çərçivəsində görülən işlər təhlil edilib. Komitə üzvləri mövcud vəziyyət, hakim korpusunun fəaliyyəti, problemlər, islahatların gələcəyi barədə hakimliyə namizədlərlə birgə qarşılıqlı fikir mübadiləsi aparıblar.

Birinci vitse-spiker deputatlara məlumat verib ki, məhkəmə-hüquq islahatlarının dərinləşdirilməsi ilə bağlı Prezident Fərmanının icrası ilə əlaqədar son dövrlər 40-dan çox yeni normativ akt layihəsi hazırlanıb, həmin sənədlərin çoxu Milli Məclis tərəfindən artıq qəbul olunub. Eyni zamanda, ölkəmizdə bu dövr ərzində 12 yeni məhkəmə yaradılıb, kommersiya məhkəmələri bu il yanvar ayının 1-dən fəaliyyətdədir. Hakimlərin təminatının yaxşılaşdırılması, ölkədə vahid məhkəmə təcrübəsinin yaradılması ilə bağlı qanunvericiliyə müvafiq dəyişikliklər edilib. Hakim ştatlarının sayı 200 vahid artırılıb, onların seçilməsi prosesi davamlı xarakter alıb, fasiləsiz seçimin aparılması proseduru yaradılıb.

Əli Hüseynli hakimliyə namizədlər barədə ətraflı məlumat verdikdən sonra deputatlar Siyavuş Novruzov, Aydın Mirzəzadə, Musa Quliyev, Sadiq Qurbanov, Vahid Əhmədov, Hicran Hüseynova, Səməd Seyidov namizədlikləri təqdim olunmuş şəxslərin iş təcrübələri, mənəvi keyfiyyətləri barədə fikirlərini bölüşüblər.

Sonra səsvermə keçirilib. Milli Məclis Kəmalə Abiyeva, Zaur Əliyev, Vüqar Həsənov, Abiddin Hüseynov, İsmayıl Xəlilov, Elşad Şamayev, İspəndiyar Şəfiyev, Aqil Abbasov, Ələsgər Novruzov, Çingiz Əsgərov, Bəhman Qəribov və Bəhram Məmmədlinin Ali Məhkəmənin hakimləri təyin olunmasına razılıq verib.

Vəfaddin İbayev, Akif İsgəndərov, Əli Seyfəliyev, Qürbət Əsgərov, Ramin Qurbanov, Ziya Şirinov, Anar Tanrıverdiyev, Emin Mehdiyev, Rəşad Həsənov Bakı Apellyasiya Məhkəməsinin hakimləri təyin ediliblər.

Aslan Kalbalıyev Ali Məhkəmənin, İlham Əhmədov Bakı Apellyasiya Məhkəməsinin, Fehruz Abbasov Şirvan Apellyasiya Məhkəməsinin, Mübariz Hüseynov isə Şəki Apellyasiya Məhkəməsinin hakimi vəzifələrindən azad olunublar.

Plenar iclasda gündəlikdəki növbəti məsələlərin müzakirəsinə keçməzdən əvvəl günün aktual məsələlərinə münasibət bildirilib.

Əvvəlcə Milli Məclisin Sədri Sahibə Qafarova Prezident İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Təmas Qrupu formatında dünən keçirilən Zirvə görüşünə diqqət yönəldib. Qeyd edib ki, videokonfrans vasitəsilə keçirilən Zirvə görüşü koronavirusa qarşı mübarizəyə həsr olunmuşdu.

Spiker vurğulayıb ki, 40-dan çox üzv ölkənin dövlət və hökumət başçılarının, həmçinin nüfuzlu beynəlxalq təşkilatların rəhbərlərinin Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsünə dəstək verməsi və "COVID-19-a qarşı birlikdəyik" mövzusunda Zirvə görüşünə qatılması bir daha Azərbaycanın və onun liderinin beynəlxalq nüfuzunun çox yüksək olduğunu göstərib. Qeyd edib ki, pandemiya şəraitində ölkələr və təşkilatlar arasında həmrəylik və əməkdaşlıq böyük önəm daşıyır. Bu qlobal bəlanın yayılmasının qarşısının alınması və onun fəsadlarının aradan qaldırılması Qoşulmama Hərəkatına üzv olan dövlətlərin də qarşısında duran ən mühüm vəzifələrdən biridir. Ona görə də hesab edirəm ki, möhtərəm Prezidentimizin təşəbbüsü ilə belə bir Zirvə görüşünün keçirilməsi koronavirus pandemiyasına qarşı mübarizədə həmrəylik baxımından çox vacibdir və bütün dövlətlərin səylərinin birləşdirilməsinə daha bir çağırışdır.

Çıxışının yekununda Sahibə Qafarova əminliklə qeyd edib ki, Azərbaycan öz təşəbbüsləri ilə qlobal əməkdaşlıq üçün mühüm platforma və körpü yaradır.

Sonra iclasda Fazil Mustafa, Musa Qasımlı, Razi Nurullayev, Azay Quliyev, Sabir Rüstəmxanlı, Sahib Alıyev, Elman Nəsirov, Əli Məsimli, Siyavuş Novruzov, Qənirə Paşayeva, Zahid Oruc bir sıra cari məsələlərə toxunub, rəy və təkliflərini bildiriblər.

Gündəlikdəki növbəti beş məsələ beynəlxalq sənədlərin təsdiqi haqqında qanun layihələri idi. "Nəşrlərin beynəlxalq mübadiləsinə dair" Konvensiyanın təsdiq edilməsi barədə qanun layihəsini Milli Məclisə Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva təqdim edib. Bildirib ki, bu konvensiya 1958-ci il dekabrın 3-də Parisdə UNESCO tərəfindən qəbul edilib, 1961-ci il noyabrın 23-də qüvvəyə minib və indiyədək 47 dövlət tərəfindən ratifikasiya edilib. Konvensiyanın 14-cü maddəsinə əsasən dövlətlər bu sənədi öz milli qanunvericiliklərinə uyğun qəbul və ya ratifikasiya edirlər. Sənəd konvensiyanın iştirakçısı olan dövlətlərin hökumət orqanları və kommersiya məqsədi daşımayan təhsil, elm, texnika və mədəniyyət profilli qeyri-hökumət qurumları arasında nəşrlərin mübadiləsini ehtiva edir. Mübadilə obyektləri kimi təhsil, hüquqi, elmi-texniki, mədəniyyət və informasiya sahəsi üzrə nəşrlər nəzərdə tutulur. Konvensiya məxfi sənədlərə, sirkulyar məktublara şamil edilmir.

Komitə sədri vurğulayıb ki, Azərbaycan bu konvensiyaya xüsusi qeyd-şərtlə qoşulur və bəyan edir ki, UNESCO-nun "Nəşrlərin beynəlxalq mübadiləsinə dair" Konvensiyasının müddəaları Ermənistan Respublikasına münasibətdə Azərbaycan tərəfindən tətbiq olunmayacaq. Həmçinin Ermənistan tərəfindən işğal edilmiş ərazilərdə (Azərbaycanın Dağlıq Qarabağ regionunda və ona bitişik 7 rayonunda) həmin ərazilər işğaldan azad edilənədək və işğalın nəticələri tam aradan qaldırılanadək təminat vermir.

Fikir mübadiləsində deputatlar Musa Qasımlı, Etibar Əliyev, Jalə Əliyeva, Əli Hüseynli sənədin əhəmiyyətindən bəhs ediblər. Qanun layihəsinin təqdimatı və müzakirəsi zamanı UNESCO ilə əməkdaşlıq əlaqələrimizin möhkəmlənməsində Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın xidmətləri xüsusi qeyd olunub. Milli Məclis konvensiyanın ratifikasiyasına razılıq verib.

Gündəlikdəki növbəti 3 qanun layihəsini İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili təqdim edib. Bildirib ki, "Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin ərazisindən tranzit qaydası haqqında 1999-cu il 4 iyun tarixli Sazişdə dəyişikliklər edilməsi barədə" Protokolun təsdiqinə dair qanun layihəsi ölkənin suveren iqtisadi maraqlarına xidmət edir. Məlumat dinlənildikdən sonra sənəd səsə qoyulub və qəbul edilib.

Deputatların nəzərinə çatdırılıb ki, "Azad ticarət zonasının yaradılması haqqında Sazişin iştirakçısı olan dövlətlər arasında dövriyyədə olan əmtəələrin gömrük rəsmiləşdirilməsi və gömrük nəzarəti qaydası haqqında 1999-cu il 8 oktyabr tarixli Sazişdə dəyişikliklərin edilməsi barədə" sənəd üzv ölkələrin ümummilli maraqlarını daha da önə çəkmək məqsədi daşıyır.

Bildirilib ki, Azərbaycan bu sənədə də qeyd-şərtlə qoşulur. Sazişdə əks olunmuş hüquqların, öhdəliklərin və müddəaların heç biri Ermənistana münasibətdə və Azərbaycanın işğal edilmiş ərazilərində fəaliyyətə münasibətdə torpaqlarımız Ermənistan tərəfindən işğaldan azad olunana və təcavüzün nəticələri tam aradan qaldırılanadək tətbiq edilməyəcək.

Deputatlar bu protokolun müvafiq qeyd-şərtlə təsdiq edilməsini məqsədəuyğun hesab ediblər.

"1994-cü il 9 sentyabr tarixli Avrasiya Patent Konvensiyasının Sənaye nümunələrinin mühafizəsinə dair" Protokolunun təsdiq edilməsi haqqında" qanun layihəsi barədə danışan Tahir Mirkişili vurğulayıb ki, bu protokolun əsas məqsədi razılığa gələn dövlətlərin daxili bazarlarının, ticarətinin və investisiya fəaliyyətinin inkişafıdır. İndiki halda bu sənədə qoşulmaq böyük əhəmiyyət kəsb edir.

Səsvermə zamanı deputatlar bu sənədi də dəstəkləyiblər. Onu da qeyd edək ki, ölkəmiz bu sənəd üzrə də bəyanatla çıxış edib və Ermənistan tərəfindən işğal edilmiş ərazilərimizdə (Azərbaycanın Dağlıq Qarabağ regionunda və ona bitişik 7 rayonunda) bu protokolun müddəalarının həyata keçirilməsinə həmin ərazilər işğaldan azad edilənə və işğalın nəticələri tam aradan qaldırılanadək təminat vermədiyini bildirib.

Plenar iclasda "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə İtaliya Respublikasının Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq Nazirliyi arasında diplomatik nümayəndəlik, konsulluq və daimi nümayəndəlik əməkdaşlarının ailə üzvlərinin haqqı ödənilən əmək fəaliyyəti haqqında Anlaşma Memorandumunun təsdiq edilməsi barədə" qanun layihəsini təqdim edən Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov sənədin əhəmiyyətini xüsusi vurğulayıb, Azərbaycanın milli maraqlarına cavab verdiyini bildirib. Deputatlar Rauf Əliyev və Aydın Mirzəzadənin fikirləri dinlənildikdən sonra Anlaşma Memorandumu ratifikasiya olunub.

İclasda "Dövlət rüsumu haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə də (üçüncü oxunuş) baxılıb və qanun üçüncü oxunuşda qəbul edilib.

Parlamentə bir zərfdə daxil olmuş növbəti iki qanun layihəsi koronavirus pandemiyasından irəli gələn məsələlərlə əlaqədar idi. Əvvəlcə Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev "Sosial sığorta haqqında" Qanunda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) məlumat verdi. Layihə əsas kimi qəbul edilib və müzakirə başlanıb. Deputatlar Əli Məsimli, Azər Badamov fikirlərini bölüşüblər. Qanun layihəsi öncə maddə-maddə, sonra bütövlükdə səsə qoyulub və ikinci oxunuşda qəbul edilib.

Plenar iclasın yekununda koronavirus pandemiyası ilə əlaqədar Vergi Məcəlləsində dəyişiklik edilməsinə dair qanun layihəsinə (ikinci oxunuş) baxılıb. Komitə sədri Tahir Mirkişilinin məlumatı dinlənilib. Məcəlləyə edilən dəyişikliklərin cəmiyyətdə çox geniş müzakirə olunduğu bildirilib. Qeyd edilib ki, təklif edilən dəyişikliklər pandemiyadan zərər çəkmiş sahələrdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinə (o cümlədən kiçik və orta sahibkarlığa) bir sıra istiqamətləri əhatə edən vergi güzəştlərinin və tətillərinin verilməsini nəzərdə tutur.

İkinci oxunuşda müzakirəyə çıxarılmış qanun layihəsi öncə əsas kimi qəbul edildi. Fikir mübadiləsində Əli Məsimli, Razi Nurullayev, Mahir Abbaszadə rəy və təkliflərini bildiriblər. Qanun layihəsi əvvəlcə maddə-maddə, sonra bütövlükdə səsə qoyuldu və ikinci oxunuşda qəbul edilib. Bununla da Milli Məclisin növbəti plenar iclası başa çatıb.

## Bəhruz Quliyev: “Zirvə görüşü Azərbaycana və onun liderinə dünyada olan inamın, etibarın və etimadın göstəricisidir”



Azərbaycan özünün yüksək reytinqi ilə nəinki regional, eyni zamanda beynəlxalq arenada söz sahibinə çevrilib və yüksək nüfuz reallığı özünü dəfələrlə sübuta yetirib. Zirvə görüşü Azərbaycana və onun liderinə dünyada olan inamın, etibarın və etimadın göstəricisidir.

Bunu Trend-ə açıqlamasında “SƏS” qəzetinin baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev Qoşulmama Hərəkatının sədri kimi Prezident İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Təmas Qrupu formatında mayın 4-də video-konfrans vasitəsilə koronavirusla mübarizəyə həsr olunmuş “COVID-19-a qarşı birlikdəyik” mövzusunda Zirvə görüşünün keçirilməsi ilə bağlı fikirlərini şərh edərkən deyib.

Ekspertin sözlərinə görə, xüsusilə dünyanı bürüyən koronavirus pandemiyası dövründə Prezident İlham Əliyevin təşəbbüskarlığı, eləcə də beynəlxalq aləmə göstərdiyi dəstək, həmrəylik nümunəsi bu amili kifayət qədər isbatlamaqdadır: “Bir müddət əvvəl dövlət başçımızın Türk Dövlətləri Şurasının ölkə başçılarının iştirakı ilə Zirvə görüşünü keçirmək təklifi və təşəbbüsünün yüksək qiymətləndirilməsi, eləcə də görüş əsasında COVID-19-la mübaizə istiqamətində irəli sürdüyü fikirlərinin dəstəkənməsi, həmçinin ölkəmizdə həyata keçirilən təxirəsalınmaz işlərin nümunə olaraq digər ölkələrdə tətbiqi də belə qənaətə gəlməyə zəmin yaradır ki, Qoşulmama Hərəkatının Təmas Qrupu formatında baş tutan Zirvə toplantısı da bu addımların davamıdır. Əbəs deyil ki, ötən ilin oktyabr ayında - Qoşulmama Hərəkatının Bakıda XVIII Zirvə görüşü keçirilərkən, 120 dövlət Azərbaycanın Hərəkata üç illik sədrliyini dəstəklədi”.

Baş redaktor bu uğur tandemini Azərbaycan dövlətinə və ölkə liderinə göstərilən böyük etimadın göstərilməsi ilə əlaqələndirib: “Cənab Prezident İlham Əliyev Zirvə toplantısında bir sıra mühüm məqamları ehtiva edən fikirlərini çatdırmaqla yanaşı, həmçinin ölkəmizin beynəlxalq arenada üzv ölkələrin maraqlarının müdafiə edilməsi üçün əməli addımlar atacağını, həmrəyliyin gücləndirilməsini və qarşılıqlı dəstəyi rəhbər tutacağını xüsusilə vurğuladı. Deyərdim ki, bu bəyanat həm də dünya xalqlarına olan bir çağırışdır - humanizm, sosial xarakterli və əlbəttə ki, səmimiyyət üzərində qurulmuş həmrəylik çağırışı. Məhz bu baxımdan qürurla deyə bilərik ki, Azərbaycanın təşəbbüsü ilə keçirilən Qoşulmama Hərəkatının koronavirusa qarşı Təmas Qrupunun Zirvə görüşü qarşıda atılacaq növbəti uğurlu addımların anonsudur.

Onu da qeyd etmək istərdim ki, dövlət başçımız prioritet məsələnin insanların sağlamlığı və onların sosial müdafiəsinin təmin edilməsi fikrini vurğulamaqla beynəlxalq aləmi də həmin siyasət fonunda fəaliyyət göstərməsinə səsləyib. Çox sevindiricidir ki, Hərəkata üzv olan ölkələr bu təşəbbüsə də dəstək sərgiləyərək, onu alqışlayıblar”.

B.Quliyev qeyd edib ki, Prezident İlham Əliyevin uğurlu təşəbbüsləri və bu fonda həyata keçirilən Zirvə toplantıları Azərbaycan dövlətinin beynəlxalq güc mərkəzinə, söz sahibinə çevrilməsini bir daha sübut edir: “Söz yox ki, bu uğurlar ölkəmizin ali nüfuzunun daha da artmasına, siyasi arealdakı liderlik mövqeyinə böyük stimul verməkdədir”.

## “Azərbaycan qlobal əməkdaşlığın güclənməsinə əhəmiyyətli töhfə verir”



“Cənab Prezident İlham Əliyevin təşəbbüsü ilə aprel ayının 10-da Türk Şurasının Zirvə görüşünün keçirilməsindən sonra 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatının Təmas Qrupunun Zirvə görüşünün təşkil edilməsi onu isbatlayır ki, Azərbaycan beynəlxalq arenada COVİD-19 pandemiyasına qarşı mübarizədə ölkələrin həmrəyliyinin gücləndirilməsi və qarşılıqlı dəstəyin verilməsi prinsiplərini rəhbər tutur”. Bunu SİA-ya açıqlamasında Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva deyib.

Sədaqət Vəliyeva bildirib ki, bu gün koronavirus pandemiyası dünyada vəziyyəti tamamilə dəyişib və nəticədə yeni reallıqlar meydana çıxıb. Bu səbəbdən də yeni vəziyyətə çevik və adekvat reaksiya verən Azərbaycanın təşəbbüsü ilə keçirilən Qoşulmama Hərəkatının koronavirusa qarşı Təmas Qrupunun Zirvə görüşü bütün üzv dövlətlər tərəfindən yekdilliklə dəstəklənib: “Sirr deyil ki, Azərbaycan pandemiyaya qarşı görülmüş tədbirlərə görə nümunəvi ölkə kimi dəyərləndirilir və təsadüfi deyil ki, Azərbaycan dünya birliyinin məsuliyyətli və etibarlı üzvü kimi koronavirusa qarşı qlobal mübarizəyə dəstək olaraq Ümumdünya Səhiyyə Təşkilatına 5 milyon dollar könüllü maliyyə yardımı ayırıb. Bu vəsait isə Azərbaycanla razılaşdırılmaqla ən çox yardıma ehtiyacı olan Afrika, Asiya və Latın Amerikası regional qruplarından olan üzv ölkələr üçün nəzərdə tutulur. Bütün bunlarla yanaşı, Azərbaycan həkimlərinin peşəkarlıqlarını, koronavirus xəstələrinin müalicəsi sahəsində təcrübəsini Qoşulmama Hərəkatının digər üzv dövlətləri ilə bölüşməyə və bu sahədə əməkdaşlığa da hazır olduğunu nümayiş etdirir. Deyilən məqamlar bir daha onu sübut edir ki, Azərbaycan qlobal pandemiya şəraitində ölkələr və beynəlxalq təşkilatlar arasında həmrəyliyin və əməkdaşlığın genişləndirilməsinin tərəfdarıdır”.

“Zirvə görüşündə ifadə edilən qlobal həmrəylik çağırışı da olduqca mühümdür” - deyən Sədaqət Vəliyeva əlavə edib ki, Qoşulmama Hərəkatının sədri kimi Prezident İlham Əliyevin təşəbbüsü ilə təşkilatın Təmas Qrupunun formatında videokonfrans vasitəsilə koronavirusla mübarizəyə həsr olunmuş “COVID-19-a qarşı birlikdəyik” mövzusundakı Zirvə görüşü bu bəlaya qarşı dövlətlərin həmrəyliyi və əməkdaşlığı baxımından çox əhəmiyyətlidir: “Görünən odur ki, Azərbaycan nəinki milli səviyyədə COVID-19-la mübarizədə səmərəli tədbirlər görür, eyni zamanda, regional və qlobal miqyasda da koronavirusa qarşı həmrəyliyin və əməkdaşlığın güclənmirilməsinə əhəmiyyətli töhfəsini verir”.

***Gülyana***

## Vüqar Rəhimzadə: “Zirvə görüşü Azərbaycanın beynəlxalq aləmdə artan nüfuzunun təsdiqidir”



“Dünyanı bürüyən koronavirus infeksiyasına qarşı mübarizə tədbirlərinin gücləndirilməsi qarşılıqlı dəstəyi, birgə səylərin göstərilməsini daha da aktuallaşdırır, birliyə, həmrəyliyə çağırış edir. Dövlətimizin başçısı İlham Əliyevin təşəbbüsü ilə Türk Şurasının videokonfrans vasitəsilə fövqəladə Zirvə görüşünün, onun ardınca Qoşulmama Hərəkatının Təmas Qrupu formatında videokonfrans vasitəsilə “COVID-19-a qarşı birlikdəyik” mövzusunda Zirvə görüşünün keçirilməsi Azərbaycana və onun liderinə dünyada olan inamın, etibarın və etimadın göstəricisidir. Hər iki tədbir, eyni zamanda, göstərir ki, ölkəmiz koronavirus pandemiyası ilə bağlı formalaşan yeni reallıqlara, yaranmış vəziyyətə çevik və adekvat reaksiya verir. Azərbaycanın bu istiqamətdə atdığı addımlar beynəlxalq səviyyədə dəstəklənməklə yanaşı, əksər ölkələrdə tətbiq olunur. Bir sözlə, Azərbaycan pandemiyaya qarşı mübarizə sahəsində nümunəvi ölkə kimi təqdir olunur”. Bu fikirləri Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, “İki sahil” qəzetinin baş redaktoru Vüqar Rəhimzadə SİA-ya açıqlamasında bildirib.

V.Rəhimzadə qeyd edib ki, COVID-19 qlobal pandemiyası bütün dünya dövlətlərinin iqtisadiyyatına, xüsusilə insanların sağlamlığına mənfi təsir göstərir. Təbii ki, heç bir ölkə bundan sığortalanmayıb. Dövlətimizin başçısı İlham Əliyev Qoşulmama Hərəkatının Təmas Qrupu formatında Zirvə görüşündə bu reallığı bir daha diqqətə çatdırmışdır ki, qarşılıqlı dəstək, özünə qapanmama və yalnız birgə səylərlə COVID-19-a qalib gələ bilərik.

“Bu fikir də xüsusi qeyd edilir ki, koronavirus pandemiyası qlobal təhlükə olduğu üçün qlobal cavab tələb edir” söyləyən V.Rəhimzadə bildirib ki, hər bir ölkə bu öldürücü virusla mübarizədə özünəməxsus konsepsiya irəli sürərək bu istiqamətdə ciddi addımlar atır. Nəzərə alsaq ki, Qoşulmama Hərəkatı Birləşmiş Millətlər Təşkilatına üzv olan dövlətlərin üçdəikisini özündə birləşdirir, bu halda hər bir ölkənin ortaya qoyduğu yanaşmanın mübarizənin effektivliyində rolunu aydın görərik. Azərbaycanın pandemiyaya qarşı mübarizə istiqamətində atdığı addımların davamlılığı göz önündədir. Məqsəd insanların sağlamlığını təmin etmək, həmçinin pandemiyanın iqtisadi və sosial fəsadlarını aradan qaldırmaqdır. Pandemiya şəraitində Azərbaycanda makroiqtisadi və maliyyə sabitliyini təmin etmək, məşğulluq problemlərini həll etmək istiqamətində görülən işlərdən geniş bəhs edən dövlətimizin başçısı İlham Əliyev bu rəqəmi də xüsusi diqqətə çatdırmışdır ki, bu məqsədlə 3,5 milyard manat məbləğində sosial-iqtisadi dəstək paketi qəbul olunub.

Baş redaktor qeyd edib ki, pandemiyanın dünyanı bürüdüyü indiki şəraitdə həmrəyliyə və əməkdaşlığa böyük ehtiyac olduğunu önə çəkən cənab İlham Əliyev bildirmişdir ki, Azərbaycan pandemiyaya qarşı mübarizədə ilk günlərdən Ümumdünya Səhiyyə Təşkilatı ilə səmərəli əməkdaşlıq edir. Məhz bu birlik, əməkdaşlıq sayəsində görülən işlər daim qurumun rəsmiləri tərəfindən yüksək dəyərləndirilmiş, Azərbaycanın pandemiyadan az itki ilə çıxan ölkə olacağı böyük əminliklə qeyd edilmişdir.

“Göründüyü kimi, Azərbaycan koronavirus pandemiyasına qarşı mübarizədə həm ölkə daxilində, həm də dünyada öz fəal rolunu oynayır”, deyən baş redaktor bildirib ki, Azərbaycan öz təşəbbüsləri, praktiki addımları ilə dünyada həmrəyliyin möhkəmlənməsinə, indiki mürəkkəb şəraitdə dövlətlər və xalqlar arasında əlaqələrin inkişafına, qlobal koronavirus pandemsiyası ilə mübarizədə bütün səylərin səfərbər olmasına öz töhfələrini verir: “40-a yaxın ölkənin dövlət və hökumət başçılarının, xarici işlər nazirlərinin, BMT Baş Assambleyasının prezidentinin, Ümumdünya Səhiyyə Təşkilatının Baş direktorunun iştirak etdikləri Qoşulmama Hərəkatının Təmas Qrupu formatında Zirvə görüşü Azərbaycanın beynəlxalq aləmdə artan nüfuzunun təsdiqidir. Dövlətimizin başçısı İlham Əliyev Zirvə görüşündə bu məqamı da xüsusi qeyd etmişdir ki, sədrliyi öz üzərimizə götürərkən Azərbaycanın beynəlxalq arenada üzv ölkələrin maraqlarının müdafiə edilməsi üçün əməli addımlar atacağını, həmrəyliyin gücləndirilməsini və qarşılıqlı dəstəyi rəhbər tutacağını bəyan etmişdik”.

V.Rəhimzadə bildirib ki, Azərbaycanın ötən il qurumun XVIII Zirvə görüşünə ev sahibliyi etməsi, 2019-2022-ci illərdə Qoşulmama Hərəkatına sədrliyi üzərinə götürməsi, eyni zamanda, dünyanı bürüyən pandemiyaya qarşı mübarizənin gücləndirilməsində beynəlxalq birliyin, həmrəyliyin önəmini nəzərə alaraq qurumun Təmas Qrupu formatında videokonfrans vasitəsilə “COVID-19-a qarşı birlikdəyik” mövzusunda Zirvə görüşünün keçirilməsi təşəbbüsü ilə çıxış etməsi bir daha ölkəmizin dünyanı narahat edən hər bir məsələyə uyğun addımlar atdığını, səylərin birləşdirilməsinə nail olduğunu təsdiqləyir: “COVID-19-a cavab olaraq Qoşulmama Hərəkatının Təmas Qrupunun onlayn səviyyəli Zirvə görüşünün Bəyannaməsində əksini tapan 18 maddənin hər birində də birlik, həmrəylik çağırışı özünün aydın ifadəsini tapıb. Bəyannamədə xüsusi vurğulanır ki, bəşəriyyət üçün ciddi problem olan, birlik, həmrəylik və yenilənmiş çoxtərəfli əməkdaşlığa əsaslanmaqla qlobal reaksiya tələb edən COVID-19-un sürətlə yayılmasından ciddi narahatlıq ifadə edərək Birləşmiş Millətlər Təşkilatının üzv dövlətlərini milli, regional və beynəlxalq səviyyələrdə bu bəlaya qarşı mübarizə aparmaq istiqamətində əməkdaşlıqlarını möhkəmləndirməyə çağırırıq”.

## “Rüşvətxorluğa qarşı mübarizənin məsuliyyətini bir insanın üzərinə yükləmək olmaz”

“Korrupsiya ilə mübarizə məsələləri Azərbaycanda çoxdan qaldırılıb. Cənab Prezident tərəfindən karrupsiya haqqında dövlət proqramı da qəbul olunub. Təəssüf ki, onu həyata keçirən orqanların bu və ya digər formada korrupsiya ilə bağlılıqları var. Bunu etiraf etmək lazımdır. Cənab Prezidentin də qeyd etdiyi kimi xüsusilə təyinatlar məsələsində rüşvət alaraq qeyri-peşəkarları təyin edirlər. Təbii ki, o cür vəzfəyə gələnlər də əlbəttə, rüşvət yığmaqla məşğul olacaq”. Bunu SİA-ya açıqlamasında politoloq Cümşüd Nuriyev deyib. Onun sözlərinə görə, ən çox dövlətlə xalq arasında uçurumu yaradan rayon icra hakimiyyətinin rəhbərləridir: “Rayon icra hakimlərinin təyinatına məsuliyyəti kim daşıyırsa, bu məsələ barədə onlar cavab verməlidir. Qohumluq, tanışlıq məsələləri üzərində təcrübəsiz insanlara vəzifə veriblər. Rayonların əksəriyyətində vəziyyət acınacaqlıdır. Rayonlar DTX-nın qara maskalılarını gözləyirlər. Bu hal heç də yaxşı şey deyil. Cənab Prezident də bu nüansı qeyd edib. Bu məsələ ilə əlaqədar Azərbaycan mediası nə qədər yazır, amma icrasını müvafiq orqanlar etməlidir”.

C.Nuriyev vurğulayıb ki, bəzi məmurlar rüşvətin şeytana belə məlum olmayan formalarını fikirləşib tapıblar: “Onlar o ağıllarını onlara etimad göstərən cənab Prezidentin tapşırıqlarını yerinə yetirməyə yönəltsəydilər, Azərbaycanda hazırda tamamilə başqa bir vəziyyət idi. Təkcə cənab Prezidentlə, Mehriban xanımla bu məsələnin tam şəkildə öz həllini tapması mümkün deyil. Xüsusilə rayonlara peşəkarlar göndərilməlidir. Vəzifəyə təyin edilmiş yeni Prokurorun da işi çox çətindir. Kamran Əliyev hüquq sahəsində çox peşəkardır. Amma bir məsələ var ki, onun tək gücü çatacaqmı? Çünki Azərbaycanda rüşvət alan məmurlar yetəri qədərdir. Bu şəxslərə qarşı artıq cənab Prezident müharibə elan edib. Bu işin məsuliyyətini isə tək bir insanın üzərinə yükləmək olmaz”.

***Aysel Məmmədova***

# Zirvə görüşü göstərdi ki, Azərbaycan qlobal miqyasda koronavirus pandemiyasına qarşı həmrəyliyin və əməkdaşlığın gücləndirilməsinə özünün mühüm töhfəsini verir



*Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini, YAP-ın Beynəlxalq əlaqələr şöbəsinin müdiri Sevinc Fətəliyevanın yap.org.az-a müsahibəsi*

***- Sevinc xanım, bildiyimiz kimi mayın 4-də Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Təmas Qrupu formatında videokonfrans vasitəsilə Zirvə görüşü keçirildi. Sizcə, Zirvə görüşünün əhəmiyyəti nədən ibarətdir?***

- Qoşulmama Hərəkatının sədri kimi Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Təmas Qrupu formatında videokonfrans vasitəsilə koronavirusla mübarizəyə həsr olunmuş “COVID-19-a qarşı birlikdəyik” mövzusunda Zirvə görüşü keçirilməsi ilk növbədə dövlətimizin başçısının dünyada böyük nüfuza malik lider olmasının göstəricisidir. Bilirsiniz ki, 2019-cu il oktyabr ayının 25-26-da Qoşulmama Hərəkatının Bakıda XVIII Zirvə görüşü zamanı təşkilata sədrlik Azərbaycana keçdi. Sədrliyi öz üzərinə götürərkən cənab Prezident İlham Əliyev bəyan etdi ki, Azərbaycan beynəlxalq arenada üzv ölkələrin maraqlarının müdafiə edilməsi üçün əməli addımlar atacaq, həmrəyliyin gücləndirilməsini və qarşılıqlı dəstəyi rəhbər tutacaq. Bu Zirvə görüşü də bir daha göstərdi ki, Azərbaycan Prezidentinin sözü ilə əməli birdir. Azərbaycan Qoşulmama Hərəkatında sədrliyinə dair əhatəli Tədbirlər Planı hazırlayıb və praktiki fəaliyyətə başlayıb.

Prezident İlham Əliyev Zirvə görüşündə çıxışı zamanı bildirdi ki, koronavirus pandemiyası dünyada vəziyyəti tamamilə dəyişmiş və nəticədə yeni reallıqlar meydana çıxmışdır. Azərbaycan yeni vəziyyətə çevik və adekvat reaksiya verir. Azərbaycanın təşəbbüsü ilə keçirilən Qoşulmama Hərəkatının koronavirus qarşı Təmas Qrupunun Zirvə görüşü bunu göstərir. Zirvə görüşündə Prezident İlham Əliyev əhatəli çıxış etdi və ölkəmizdə koronavirus pandemiyasına qarşı aparılan tədbirlər haqqında ətraflı məlumat verdi. Cənab Prezidentin qeyd etdiyi kimi, pandemiyanın dünyanı bürüdüyü indiki şəraitdə dünyanın əməkdaşlığa böyük ehtiyac var: “COVID-19 qlobal pandemiyası bütün dünya dövlətlərinə mənfi təsir göstərir. Heç bir ölkə bundan sığortalanmayıb. Qarşılıqlı dəstək, özünə qapanmama və yalnız birgə səylərlə COVID-19-a qalib gələ bilərik”.

Dövlətimizin başçısı çox vacib bir təkliflə də çıxış etdi ki, qlobal həmrəyliyin nümunəsi kimi Qoşulmama Hərəkatının üzv ölkələri olaraq BMT Nizamnaməsində nəzərdə tutulan Baş Assambleyanın COVID-19 pandemiyasına həsr olunmuş dövlət və hökumət başçıları səviyyəsində videokonfrans vasitəsilə xüsusi sessiyası keçirilsin. Bu çox mühüm məsələdir və Azərbaycan Prezidentinin qlobal çağırışlara çox çevik bir reaksiya verməsinin göstəricidir.

Onu da qeyd edim ki, Zirvə görüşündə BMT-nin Baş katibi Antonio Quterreş və Avropa İttifaqının ali nümayəndəsi və Avropa Komissiyasının vitse-prezidenti Cozef Borel videomüraciətlə çıxış etdilər. Hər iki şəxs pandemiya ilə mübarizədə Azərbaycan Prezidentinin bu təşəbbüsünü yüksək qiymətləndirdilər. Zirvə görüşündə həmçinin, BMT Baş Assambleyasının 74-cü sessiyasının prezidenti Ticani Məhəmməd-Bande, Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru cənab Tedros Adhanom Qebreyesus, Afrika İttifaqı Komissiyasının sədri Musa Faki Mahamat və təşkilata üzv olan bir çox ölkələrin dövlət və hökumət başçıları çıxış edərək koronavirus pandemiyası ilə mübarizə yolları haqqında fikirlərini bildirdilər, bu mübarizədə əməkdaşlığın əhəmiyyətini vurğuladılar. Demək olar ki, bütün çıxışlarda Azərbaycan Prezidentinin təşəbbüsləri yüksək qiymətləndirildi. Bu, bizim üçün qürurverici haldır.

Bütövlükdə, coğrafi təmsilçilik prinsipi əsasında Avropa, Asiya, Afrika və Latın Amerikasında yerləşən ölkələrin iştirakı ilə Təmas Qrupu formatında keçirilən Zirvə görüşü göstərdi ki, Azərbaycan nəinki milli səviyyədə COVID-19-la mübarizədə səmərəli tədbirlər görür, eyni zamanda, regional və qlobal miqyasda da koronavirusa qarşı həmrəyliyin və əməkdaşlığın gücləndirilməsinə özünün mühüm töhfəsini verir.

***- Zirvə görüşünün yekununda birgə Bəyannamə qəbul olundu. Bəyannamədə əksini tapan məsələlərlə bağlı fikirlərinizi bilmək istərdik...***

- Əlbəttə ki, birgə Bəyannamədə çox vacib məsələlər əksini tapır. Sənəddə bəşəriyyət üçün ciddi problem olan və birlik, həmrəylik və yenilənmiş çoxtərəfli əməkdaşlığa əsaslanmaqla qlobal reaksiya tələb edən COVID-19-un sürətlə yayılmasından ciddi narahatlıq ifadə edilir. Bu sənəd vasitəsilə Qoşulmama Hərəkatına üzv ölkələr pandemiyanın misli görünməmiş təsirlərini, o cümlədən cəmiyyətlərə və iqtisadiyyatlara, eləcə də qlobal səyahətə və ticarətə ciddi zərər verdiyini və insanların yaşayışına dağıdıcı təsirini tanıdıqlarını vurğulayıblar.

Bəyannamədə o da qeyd olunur ki, sədrlik tərəfindən mümkün dəstək və köməklik üçün bütün donor ölkələrə, beynəlxalq humanitar təşkilatlara, beynəlxalq maliyyə institutlarına,sosial məsuliyyət layihələri həyata keçirən transmilli özəl təsisatlara və başqalarına təqdim olunacaq Qoşulmama Hərəkatına üzv dövlətlərin əsas humanitar, tibbi ehtiyac və tələbatlarını ehtiva edən məlumat bazasının işlənməsi məqsədilə Qoşulmama Hərəkatının İşçi Qrupunun yaradılması qərara alınıb.

Yeri gəlmişkən, qeyd edim ki, pandemiyaya qarşı mübarizədə ən çox yardıma ehtiyacı olan Qoşulmama Hərəkatı üzv dövlətlərini dəstəkləmək üçün Azərbaycan Ümumdünya Səhiyyə Təşkilatına əlavə olaraq 5 milyon dollar ianə ayırır. Bu vəsait ölkəmizlə razılaşdırılmaqla ən çox yardıma ehtiyacı olan Afrika, Asiya və Latın Amerikası regional qruplarından olan üzv ölkələr üçün nəzərdə tutulur.

***- Ümumiyyətlə, Qoşulmama Hərəkatının beynəlxalq müstəvidə rolu, eləcə də təşkilat çərçivəsində Azərbaycanın həyata keçirdiyi diplomatiyanın önəmi haqqında nə deyə bilərsiniz?***

- Bilirsiniz ki, Qoşulmama Hərəkatı dünyada BMT-dən sonra ən böyük siyasi təsisatdır. Hazırda təşkilata 120 ölkə üzvdür və onlar heç bir hərbi və siyasi bloklarda iştirak etməyən, öz prioritetləri və gündəlikləri olan ölkələrdir.

Fəaliyyəti dövründə təşkilat mühüm qərarlar qəbul edib. Azərbaycan da bu quruma üzv olduqdan sonra onun işində fəal iştirak edir. Ölkəmiz üçün ən əlamətdar hadisələrdən biri ötən ilin oktyabr ayında Qoşulmama Hərəkatının XVIII Zirvə görüşünün Bakıda keçirilməsi və həmin tədbirdə Azərbaycanın üç il müddətində təşkilata sədr seçilməsidir.

Dünya əhalisinin 55 faizdən çoxu bu hərəkata üzv olan ölkələrin vətəndaşlarıdır. Miqyas son dərəcə cəlbedicidir. Bu səbəbdən, Azərbaycanın bu cür nüfuzlu bir təsisatın sədri seçilməsi ikiqat qürurverici və məsuliyyətlidir. Azərbaycanın 3 il müddətinə bu təşkilata sədr seçilməsi, şübhəsiz ki, diplomatiyamızın növbəti qələbəsi oldu.

Qoşulmama Hərəkatı bizim üçün mövcud beynəlxalq əlaqələrimizin möhkəmləndirilməsi, habelə yeni ikitərəfli münasibətlərin qurulması və təbii ki, ilk növbədə, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin reallıqlarının dünya ictimaiyyətinə çatdırılması baxımından bir növ siyasi arenadır. Qoşulmama Hərəkatının əsaslandığı, dövlətlərin ərazi bütövlüyünə və suverenliyinə hörməti, bir-birinin daxili işlərinə qarışmamağı ehtiva edən Bandunq prinsipləri Azərbaycanın xarici siyasət prinsipləri ilə üst-üstə düşür. Bakıda keçirilən Zirvə görüşünün Yekun Sənədinə ilk dəfə olaraq çox mühüm yeni bənd daxil edildi. Bu bənddə dövlət və hökumət başçıları güc yolu ilə ərazilərin zəbt edilməsinin yolverilməzliyini vurğulayır və təsdiq edirlər ki, heç bir dövlət Azərbaycan Respublikasının ərazilərinin işğal edilməsi nəticəsində yaranmış vəziyyətin qanuniliyini tanımayacaq, bu ərazilərdə iqtisadi fəaliyyətlər də daxil olmaqla, bu cür vəziyyətin saxlanması üçün hər hansı kömək göstərməyəcək. Burada bilavasitə işğalçı ifadəsindən istifadə olunur. Bu, Ermənistanın 120 dünya dövləti tərəfindən işğalçı kimi tanınması deməkdir.

Göründüyü kimi, dünyada ikinci ən böyük beynəlxalq təşkilat olan Qoşulmama Hərəkatı çərçivəsində Azərbaycan fəal siyasət həyata keçirir. Bu, həm dövlət maraqlarımızın qorunması, həm də Azərbaycanın beynəlxalq miqyasda nüfuzunun daha da güclənməsi baxımından əhəmiyyətlidir.

***- Sevinc xanım, hazırda ciddi müzakirə mövzularından biri də postpandemiya dövrü ilə əlaqədardır. Dünya, o cümlədən ölkəmiz nə dərəcədə buna hazırdır?***

- Bu məsələ dünya ictimaiyyətini düşündürür, bir çox ekspertlər müxtəlif fikirlər səsləndirirlər. O cümlədən, Azərbaycanda da postpandemiya dövrü ilə bağlı müəyyən düşüncələr var.

Həqiqətən də, koronavirus pandemiyası bütün dünya üçün bir sınaqdır. Bu sınaqdan uğurla çıxmaq və ondan sonrakı mərhələdə görüləcək işlər dövlətlərin və xalqların qarşısında dayanan bir çağırışdır.

Hesab edirəm ki, Azərbaycan hər zaman olduğu kimi bu sınaqdan da şərəflə çıxacaq. Prezident İlham Əliyevin həyata keçirdiyi genişmiqyaslı islahatlar Azərbaycanın postpandemiya dövrünə hazır olduğunu deməyə əsas verir.



## “Post-pandemiya dövründə iqtisadiyyatın bu sektorlarına diqqət gücləndiriləcək”

***“Azərbaycanda iki mühüm istiqamətdə, güzəştlərin tətbiq edilməsi və dövlət dəstəyinin gücləndirilməsi istiqamətlərində işlər aparılır. Eyni zamanda strateji əhəmiyyət daşıyan ərzaq məhsullarının istehsalının təşkil edilməsi istiqamətində işlər görülür”. Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü deputat Vüqar Bayramov post-pandemiya dövründə iqtisadiyyatın hansı sektorlarına daha çox diqqət ayırılacağından danışarkən deyib.***

Onun sözlərinə görə, karantindən sonra təbii ki, pandemiyanın təsir etdiyi sektorlarda fəaliyyətlərin daha qısa zamanda bərpa edilməsi prioritet olacaq və burada mərhələlilik prinsipi öz növbəsində gözləniləcək: “Mərhələli şəkildə iqtisadi aktivliyin bərpa edilməsi müşahidə olunacaq. Eyni zamanda təbii ki, pandemiya həm qlobal iqtisadiyyata, həm də milli iqtisadiyyata yeni istiqamətlər müəyyənləşdirdi. Bu istiqamətlər xüsusilə də onlayn menecment, avtomatlaşdırma kimi sektorlara daha yaxından dəstəyin nümayiş etdirilməsi ilə bağlı olacaq. Azərbaycanda iki mühüm istiqamətdə işlər aparılır, güzəştlərin tətbiq edilməsi və dövlət dəstəyinin gücləndirilməsi istiqamətlərində. Eyni zamanda strateji əhəmiyyət daşıyan ərzaq məhsullarının istehsalının təşkil edilməsi istiqamətində işlər görülür. Eyni zamanda dərman preparatlarının istehsalının genişləndirilməsindən və məqsəd həmin məhsulların yerli istehsalın genişləndirilməsi və artırılması hesabına tələbin daha çox yerli istehsal hesabına ödənilməsinə nail olmaqdan ibarətdir”.

Millət vəkili vurğulayıb ki, pandemiyanın əslində əsas mesajlarından biri də o oldu ki, bu tip xarici faktorlar ölkələrin ixrac imkanlarını məhdudlaşdıra bilər: “Bu da nəticə etibarilə tələbin yerli istehsal hesabına ödənilməsini daha da aktuallaşdırır. Ona görə də post-pandemiya dövründə tələbin yerli istehsal hesabına ödənilməsi üçün yerli istehsalın daha yaxından dəstəklənməsi həyata keçiriləcək. Ərzaq məhsullarının dəyər zəncirinə uyğun olaraq istehsalının dəstəklənməsi prioritet olaraq qalır. Vergi güzəştlərində də yerli istehsalçılara kifayət qədər geniş güzəştlər təklif olunur. Bu da həm onların fəaliyyətlərinin daha qısa zamanda bərpası, həm də onların resurslarının çıxış imkanlarının genişləndirilməsinə xidmət edəcək. Resursların cəlb edilməsi həmin sektorlarda fəaliyyətin daha qısa zamanda bərpası baxımından vacibdir”.

***Nigar Məmmədova***

# Prezidentə yazırlar: "Biz Sizinlə güclüyük, cənab Ali Baş Komandan!"

***Ölkəmizdə koronavirus pandemiyasının geniş yayılmasının qarşısının alınması, əhalinin sağlamlığının qorunması, rifahının yaxşılaşdırılması ilə bağlı gördüyü işlərə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə vətəndaşlardan minnətdarlıq məktubları gəlməkdə davam edir. AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların daha bir neçəsini təqdim edir.***



Göygöl rayonunda yaşı 65-dən yuxarı olan tənha və ahıl insanlara xidmət göstərən könüllülər adından dövlətimizin başçısına məktub ünvanlayan Aynur Hüseynova, Məsmə Əliyeva və Səidə Ələsgərova yazırlar: "Möhtərəm cənab Prezident, Siz ulu öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı kimi hakimiyyətə gəldiyiniz gündən bəri Azərbaycan daim inkişaf edir, beynəlxalq aləmdə özünəməxsus yer tutur. Apardığınız uğurlu daxili və xarici siyasət Azərbaycanın Avropa və dünya strukturlarına inteqrasiyası, xalqımızın maddi və mənəvi inkişafının təmin olunması məqsədini daşıyır. Son zamanlar bütün dünyanı bürümüş COVID-19 pandemiyası ölkəmizdən də yan keçmədi. Lakin Sizin qətiyyətiniz ölkəmizi böyük ziyanlardan qorudu. Əminik ki, Sizin rəhbərliyinizlə bu bəladan da şərəflə və üzüağ çıxacağıq. Vətəndaşların sağlamlığı Sizin üçün hər şeydən önəmlidir. Sizin çıxışlarınız, açılışlarında şəxsən iştirak etdiyiniz səhiyyə ocaqları bunun bariz nümunələridir. Cənab Prezident, karantin vəziyyəti ilə əlaqədar verilən bütün qərarlarınızı dəstəkləyirik. Çünki bu, birbaşa bizim hər birimizin sağlamlığının qorunması üçün atılmış addımlardır. "Evdə qal!" aksiyasında iştirak edən yaşlı və aztəminatlı təbəqənin nümayəndələri Sizin diqqət və qayğınız sayəsində bu çətin günlərdə maddi və mənəvi cəhətdən korluq çəkmədi. Biz - Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun Göygöl rayon şöbəsinin sosial xidmət işçiləri də həmişə Sizin tapşırıqlarınızı icra etməyə hazırıq. Bu şərəfli işinizdə həmişə Sizinləyik. Bizlərə göstərdiyiniz diqqət və qayğıya görə Sizə təşəkkür edirik. Cənab Prezident, Göygöl rayonunun ahıl insanları və ağsaqqalları hər zaman Sizin daxili və xarici siyasətinizi dəstəkləyirlər".

Bakının Nizami rayonundan Arzu Babayev: "Hörmətli cənab Prezident, Azərbaycan xalqının qəhrəman oğlu İlham Əliyev, məktubuma ümummilli liderimiz Heydər Əliyevin 18 il əvvəl Sizin haqqınızda dediyi sözlərlə başlamaq istərdim: "İlham Əliyev yüksək intellektual, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, yüksək enerjili, təşəbbüskar və tələbkar bir şəxsiyyətdir. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları və işləri sizin yaxından dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm". Son 17 ildə Azərbaycanda görülən işlərə baxdıqda Ulu Öndərin Sizin barənizdə söylədiklərinin əsl həqiqət olduğuna bir daha əmin oluruq. Bu gün ölkə həyatının elə bir sahəsi yoxdur ki, orada Sizin zəhmətinizin izi olmasın. Cənab Prezident, seçildiyiniz gündən davamlı olaraq ölkəmizin bölgələrinə səfər etmisiniz. Bəzən bir gündə 3-4 rayona getmisiniz, daim xalqla bir yerdə olmusunuz. Çünki xalqı maraqlandıran, onu narahat edən hər bir sözü insanların dilindən eşitmək istəmisiniz. Hətta bəzən doğum gününüzü bölgələrdə, xalqla bir yerdə keçirirsiniz. Bu isə xalqı əziz tutmağınızdan, onun rifahını ən vacib məsələ hesab etməyinizdən irəli gəlir. Elə ona görə də bu gün Azərbaycanda ən güclü birlik Prezidentlə xalqın birliyidir. Azərbaycan xalqı bu gün dünyanın ən xoşbəxt xalqıdır ki, onun Sizin kimi sadə, humanist, hər bir vətəndaşın probleminə diqqətlə yanaşan, bütün ömrünü xalqına həsr edən Prezidenti var. Ona görə də xalqımız Prezidentin apardığı siyasəti ürəkdən bəyənir və dəstəkləyir. Cənab Prezident, bilirik ki, xalqın sağlamlığını qorumaq Sizin üçün daim prioritet olub. Vətəndaşlarımız Sizin dəstəyiniz sayəsində hər il səhiyyə ocaqlarında pulsuz müayinə və müalicə olunurlar. Hazırda dünyanı zəbt etmiş ağır koronavirusla mübarizədə də Siz vaxtında çox qətiyyətli tədbirlər görməklə böyük fəlakətin qarşısını aldınız. İnşallah, Sizin köməyinizlə xalqımız bu bəladan minimum itki ilə çıxacaq. Sizə cansağlığı və Azərbaycanımızın taleyüklü işlərində müvəffəqiyyətlər arzulayıram. Ulu Tanrı Sizi Azərbaycana və xalqımıza çox görməsin, Sizə və Sizinlə çiyin-çiyinə çalışan Mehriban xanıma daim kömək olsun!".

Sumqayıt şəhər "Təfəkkür" liseyinin şagirdi Mehrəngiz Qurbanova: "Möhtərəm cənab Prezident, bütün dünya üçün qorxulu fəsadlarla nəticələnən koronavirus pandemiyası Vətənimiz Azərbaycandan da yan keçmədi. Dünyanın nəhəng dövlətlərinin COVID-19 qarşısında aciz qaldığı bir zamanda Azərbaycan Sizin - mənim xilaskar Prezidentimin uzaqgörən siyasəti sayəsində bu bəladan minimum ziyan gördü. Pandemiyanın üzə çıxdığı ilk gündən etibarən əhalinin mütəmadi olaraq məlumatlandırılması, qabaqlayıcı tədbir olaraq kütləvi toplanmaların qarşısının alınması, az bir vaxtda yeni tipli xəstəxanaların inşa edilməsi, ölkəmizdən kənarda olan vətəndaşlarımıza belə dövlət səviyyəsində qayğı və dəstək göstərilməsi, aztəminatlı ailələrə maddi yardım göstərilməsi və digər tədbirlər Sizin yüksək liderlik, təşkilatçılıq qabiliyyətinizin nəticəsidir. Mən milyonlarla Azərbaycan vətəndaşından biri olaraq Vətənə, xalqa göstərdiyiniz bu məhəbbət, maddi, ən əsası isə mənəvi dəstək üçün Sizə çox minnətdaram. Bir şagird kimi ilk vaxtlar məktəbimin fəaliyyətini dayandırmasına görə çox üzülsəm də, sonra anladım ki, bu tədbir mənim və minlərlə azərbaycanlı şagirdin rifahı naminədir. Dəyərli Prezidentim, həyata keçirdiyiniz uzaqgörən siyasət üçün Sizə çox minnətdarıq. Biz Sizinlə güclüyük, cənab Ali Baş Komandan!".

Laçın Rayon Ağsaqqallar Şurasının sədri Ağayar İsmayılov: "Möhtərəm cənab Prezident, ölkəmizdə koronavirus pandemiyasının geniş yayılmasının qarşısının alınması istiqamətində rəhbərliyinizlə görülən işlər xalqımızı bu bəladan qorunmasında böyük əhəmiyyət kəsb etdi. Həmişə olduğu kimi, bu çətin günlərdə də xalqımızın ən etibarlı arxa və dayağı kimi vətəndaşlarla birlikdə olmağınız, hər bir ailənin rifah halını və sağlamlığını düşünərək, bu istiqamətdə göstərdiyiniz maddi və mənəvi dəstək bir daha nümayiş etdirir ki, Siz hər bir Azərbaycan vətəndaşının layiqli Prezidentisiniz. Sizin "Biz birlikdə güclüyük!" çağırışınız xalqımızı ətrafınızda bir daha səfərbər edərək, daha sıx birləşdirdi. Biz ahıl sakinlər də bu taleyüklü məsələlərin həlli istiqamətində gördüyünüz işləri daim bəyənir, bundan məmnunluq hissi keçirir, buna görə Sizə dərin minnətdarlığımızı və təşəkkürümüzü bildiririk. İnanırıq ki, ölkəmiz Sizin müdrik rəhbərliyiniz sayəsində tezliklə bu bəladan xilas olacaq, həyatımız əvvəlki axarına düşəcək".

Rizvan Pirnəzərov adına 299 nömrəli məktəb-liseyin şagirdi Nuray Məmmədzadə: "Hörmətli cənab Prezident, dünyanı öz ağuşuna alıb məhvə sürükləyən "COVID-19" pandemiyası ilk günlərindən bütün ölkələrdə kütləvi ölümlərə səbəb olduğunda, bu qorxunc xəbər hamını məyus etmişdi. Lakin qəlbimin dərinliyində zülmət qaranlığı parçalayacaq parlaq bir günəşin doğacağına əmin olduğum üçün, nikbinlik hissi heç bir zaman məni tərk etməmişdi. Əmin əllərdə idarə olunan dövlətimizin həmişə vətəndaşının yanında olduğunu və onu qoruduğunu bildiyim üçün bu dəhşətin böyük faciə yaratmayacağına inanırdım. Təhlükənin ilk günlərində zərgər dəqiqliyi ilə alınmış uzaqgörən qərarlarınız vaxtında bu dəhşətin önünə sədd çəkdi. Bu ölüm saçan pandemiya ilə mübarizədə dünyanın bir çox ölkələrinə örnək olan davranışınızla Azərbaycan dövlətinin necə güclü olduğunu bir daha sübut etdiniz. Cənab Prezident, hazırda pandemiya dəhşətinin sönən alovları tezliklə bu bəladan qurtulub normal həyata dönəcəyimizdən xəbər verir. Sizin apardığınız çoxyönlü islahatlar ölkəmizin və xalqımızın rifahını artırdığı kimi həm də dövlətimizin güclü olmasını təmin edir. Bu da biz gənclərin özünə güvən hissini, vətən sevgisini və vətənə layiqli övlad olma məsuliyyətini artırır. Qloballaşan dünyada ikili standartlara qarşı gecə-gündüz apardığınız haqlı mübarizədə biz gənclər də sizin siyasi kursunuzun davamçılarıyıq. Gələcəkdə vətənimizə layiqli vətəndaş olmaq və bizlərə əmanət ediləcək irsi, mədəniyyəti, mental dəyərləri qoruyub gələcəyə daşımaq və bəşəriyyətin sürətlə inkişaf etdiyi bu dönəmdə yeni texnologiyalara daha müfəssəl yiyələnmək üçün, biz daha yaxşı oxumalı, müasir biliklərə yiyələnməli və bu yolda çox məsuliyyətli olmalıyıq. Doğma Azərbaycanımızı sevmək və onun layiqli vətəndaşı olmaq biz gənclərin ən vacib işidir. Çiçəklənən ölkəmizdə gündən-günə inkişaf edən iqtisadiyyatımızın hər sahəsində əldə olunan nailiyyətlər biz gəncləri daha da qürurlandırır və bizləri daha məsuliyyətli olmağa məcbur edir. Çünki bu gün əmin əllərdə idarə olunan ölkəmizin gələcəkdə daha da güclü və qüdrətli olması bizlərin prioritet məsələsidir. Bunun üçün də biz üzərimizə düşən bütün vəzifələri layiqincə yerinə yetirməliyik. Bildiyimiz kimi, tarixən ölkəmiz zaman-zaman yadellilərin və nankor qonşuların işğalına məruz qalmışdır. Bu gün də torpaqlarımızın 20 faizindən çoxu işğal altındadır. Bir milyondan artıq köçkün soydaşlarımız öz yurd-yuvalarından didərgin düşmüşlər. Lakin biz əminik ki, cənab Prezident, Siz bu çətin məsələnin tezliklə həllinə nail olacaqsınız və köçkün soydaşlarımız öz yurd-yuvalarına geri dönəcəklər. Dünya ictimaiyyətinin də bildiyi bir həqiqət var ki, o da Azərbaycanın ərazi bütövlüyünün qeyri şərtsiz bərpa olunmasıdır. Sülh yolunun tükəndiyi anda ölkəmizin müzəffər ordusu Ali Baş Komandanın əmri ilə və xalqın dəstəyi ilə düşməni darmadağın edib, üçrəngli zəfər bayrağını indi işğalda olan torpaqlarımızda dalğalandıracaq. Vətənimizin azadlığı üçün bu yolda canımızı belə verməyə hazırıq. Yaşasın Azərbaycan!".

Hacıqabul şəhərindən Təvəkkür İbrahimov: "Möhtərəm cənab Prezident, mən Hacıqabul şəhər 2 saylı tam orta məktəbin 9-cu sinif şagirdiyəm. Bütün dünyanı bürümüş koronavirus infeksiyasına qarşı ölkəmizdə səmərəli mübarizə aparıldığının şahidiyik. Eyni zamanda, ölkəmizdə də xəstəliyin qarşısının alınması üçün çox ciddi tədbirlər görülür. Karantin dövründə məktəblər bağlansa da, biz şagirdlər evdə qalsaq da, təhsildən qalmırıq. Sevimli müəllimlərimizin dəstəyi ilə dərslərimizi onlayn formada davam etdiririk. Cənab Prezident, Siz bir daha sübut etdiniz ki, Azərbaycan

# Prezidentə yazırlar: "Biz Sizinlə güclüyük, cənab Ali Baş Komandan!"

xalqının ən yaxın dostusunuz. Mən fəxr edirəm ki, azərbaycanlıyam. Mən fəxr edirəm ki, Sizin kimi Prezidentimiz var. Mən xoşbəxtəm ki, Sizin rəhbərlik etdiyiniz Azərbaycan Respublikasında yaşayıram. Siz qısa bir zamanda ölkəmizi cənnət bir məkana çevirdiniz. Siz öz xalqını sevən əsl lidersiniz. Azərbaycan xalqı Sizinlə fəxr edir. Biz şagirdlər də Sizi dəstəkləyir, Sizin möhtəşəm işlərinizə heyranlıqla baxırıq. Sizin gördüyünüz qabaqlayıcı və geniş tədbirlər nəticəsində koronavirus infeksiyasının kütləviləşməsinin qarşısı vaxtında alındı. Cənab Prezident, Siz xalqımızın sağlam yaşaması üçün böyük işlər gördünüz, bizi xəstəlikdən qorudunuz. Allah Sizi qorusun!".

Rusiya Federasiyasının Bryansk şəhərindən Elçin Mirzəyev: "Hörmətli cənab Prezident, Rusiyanın Bryansk şəhərində yaşayan və ürəyi Azərbaycanla döyünən həmvətənlərimiz doğma ölkəmiz üçün gördüyünüz böyük və əhəmiyyətli işlərinizi hər zaman diqqətlə izləyir və təqdir edirlər. Bütün dünyanı bürüyən pandemiya şəraitində hər bir vətəndaşımızın sağlamlığı üçün Sizin qabaqlayıcı tədbirlərinizin, imzaladığınız sərəncamların, qəbul etdiyiniz qərarların, həmçinin həkimlərimizin, polislərimizin qayğısı və xidmətləri əvəzsizdir. Buna görə Sizə bir vətəndaş olaraq minnətdarlığımı bildirirəm. Hörmətli cənab Prezident, biz doğmalarımızla əlaqə saxlayanda rahatlıq tapırıq. Hər bir çətin dövrdə Sizin necə güclü lider olduğunuzun bir daha şahidi oluruq. Doğmalarımızın sağlamlığının, hüquqlarının qorunmasına, onlara yardımların verilməsinə, sadalamaqla bitməyən digər işlərə görə Sizə minnətdaram. Biz Sizinlə həmişə qürur duyuruq, fəxr edirik. Allah Sizə, xalqımıza yar olsun!".

Şuşa rayonundan məcburi köçkün Cavanşir Əbilov: "Möhtərəm cənab Prezident, Sizi salamlayır və xalqımızın rifahı naminə xidmətlərinizə, xüsusən bütün dünyanı bürümüş koronavirus xəstəliyinə qarşı aparılan mübarizə tədbirlərinə görə Sizə minnətdarlığımı bildirirəm. Mənim oğlum məhkumluq həyatı yaşayır. Tez-tez bizimlə telefon əlaqəsi saxlayır. Sizin qabaqlayıcı tədbirləriniz, qayğıkeşliyiniz sayəsində cəzaçəkmə müəssisələri də bu bəlaya qarşı tam gücü ilə mübarizə aparır. Gördüyünüz işlər müsbət nəticələrini verməkdədir. Oğlumun dediyinə görə, cəzaçəkmə müəssisələrində hər gün dezinfeksiya işləri, antisanitariya tədbirləri yüksək səviyyədə aparılır. Bütün bunların nəticəsidir ki, başqa ölkələrdən fərqli olaraq Azərbaycandakı cəzaçəkmə müəssisələrində bu virus yayılmadı.

Hörmətli cənab Prezident, oğlumun adından və bir ata kimi öz adımdan cəzaçəkmə müəssisələrinə, eyni zamanda, respublikamızın bütün sakinlərinə göstərdiyiniz qayğıya görə Sizə minnətdarlığımı və dərin təşəkkürümü bildirirəm. Allah Sizə yar olsun!"

Kəlbəcər rayonundan məcburi köçkün Səbinə Səfərova: "Möhtərəm cənab Prezident, ürəyimdən gələn xoş sözləri Sizə demək üçün hansı gözəl ifadələrdən istifadə etsəm də, azdır. Sizə olan rəğbətimi, səmimi duyğularımı ifadə etmək üçün söz tapmaqda çətinlik çəkirəm. Bu ağır günlərdə dadımıza çatdığınıza, hamımıza maddi və mənəvi dəstək göstərdiyinizə görə çox sağ olun. Atalar gözəl deyib: "Ot öz kökü üstə bitər". Azərbaycan xalqının xilaskarının oğlu da onun kimi xilaskar olmalıdır. Dünyada pandemiya ilə bağlı baş verənlər əvvəllər məni az da olsa qorxuya salmışdı. Ancaq Sizin gördüyünüz operativ tədbirlər nəticəsində sanki düşdüyüm quyudan xilas oldum, gələcəyə ruhlandım. İndi elə düşünürəm ki, sanki ölkəmizdə epidemiya olmayıb. Dualarımız Sizinlə olsun. Siz mənim üçün tarixin ən qüdrətli sərkərdəsi, ən xeyirxah hökmdarısınız. Allah Sizə yar olsun!".

Ağdaş rayonunun Türyançay qəsəbəsindən Əhliman Hacıyev: "Möhtərəm cənab Prezident, bütün dünyanı dəhşətə gətirən koronavirus pandemiyası ilə əlaqədar həyata keçirdiyiniz qabaqlayıcı tədbirlər xalqımıza olan məhəbbət və sevginizin təzahürüdür. Sizin müdrik və uzaqgörən siyasətiniz, həyata keçirilən qətiyyətli və qabaqlayıcı tədbirlər xalqımızın bu bəladan az itkilərlə çıxmasına zəmin yaradır. Azərbaycan qısa müddət ərzində çoxlarının hətta uzun vaxta belə qət edə bilmədiyi bir yol keçmişdir. Ümid edirik ki, dünyanı cənginə alan xəstəlikdən tezliklə qurtulacağıq. Meliorasiya və su təsərrüfatı sahəsinə göstərdiyiniz diqqət və qayğı, Sizin rəhbərliyinizlə ölkəmizdə bu sahədə həyata keçirilmiş önəmli genişmiqyaslı layihələr sayəsində əkin sahələrinin suvarma suyu ilə təminatı yaxşılaşdırılır, kənd təsərrüfatı məhsullarının istehsalı artır. Bütün bunlar bir daha sübut edir ki, xalqımızın gələcəyi əmin əllərdədir".

Şirvan şəhərinin sakini Vaqif Cəfərovun məktubunda deyilir: "Möhtərəm cənab Prezident, artıq bir neçə aydır ki, bəşəriyyət koronavirus pandemiyası (COVID-19) ilə sözün əsl mənasında, mübarizə aparır. Pandemiya ölkələrin iqtisadiyyatına və əhalisinə böyük zərər vurdu. Amma ölkəmiz Sizin qətiyyətiniz, uzaqgörən siyasətiniz və iradəniz sayəsində pandemiyaya qarşı mübarizədə də öncüllər sırasındadır. İnsanlarımızın daha az zərər görməsi, güclü iqtisadiyyatımızın qorunub saxlanması istiqamətində atdığınız addımlar, həyata keçirdiyiniz qabaqlayıcı tədbirlər bir vətəndaş, idman veteranı kimi məni sevindirir, işıqlı sabahımıza ümidlə baxmağa ruhlandırır. Cənab Prezident. bu pandemiya ilə mübarizədən üzüağ çıxacağımıza inanıram. Sizin çağırışınıza qoşularaq deyirik ki, biz birlikdə güclüyük. Cənab Prezident, mən Sizinlə fəxr edir, Sizə minnətdarlığımı bildirir, Sizə və ailənizə uzun ömür, cansağlığı arzulayıram".

Rusiyanın Həştərxan vilayətindəki Azərbaycan diasporu adından dövlətimizin başçısına minnətdarlıq edən İrahid Mirişov yazır: "Hörmətli cənab Prezident, ölkəmizin ərazisində koronavirusun yayılmasının qarşısının alınmasında bilavasitə Sizin rəhbərliyinizlə həyata keçirilən tədbirlərə görə Rusiyanın Həştərxan vilayətinin Azərbaycan diasporu adından Sizə səmimi minnətdarlığımı bildirirəm. Biz - Həştərxan vilayətində yaşayan azərbaycanlılar virusun yayılması ilə əlaqədar Vətənimizdəki vəziyyəti böyük diqqət və həyəcan ilə izləyirik. Azərbaycan vətəndaşlarının sağlamlığının qorunması və firavanlığı məqsədilə əhaliyə tibbi yardımın göstərilməsi sahəsində islahatlara yönəldilmiş müdrik siyasətiniz, ölkə vətəndaşlarına tibbi yardımın və tibbi xidmətlərin yaxşılaşdırılması üzrə strateji proqramınız, həmçinin koronavirus infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə həyata keçirilən operativ tədbirlər müsbət nəticəsini verib. Bu, nəinki Azərbaycan vətəndaşları, həmçinin beynəlxalq siyasətçilər tərəfindən yüksək dəyərləndirilib. Biz Sizin göstərişinizlə və bilavasitə nəzarətinizlə pandemiyaya qarşı mübarizədə əhalinin qorunmasına və iqtisadiyyatın bütün həssas sektorlarına dövlət dəstəyinin göstərilməsinə istiqamətlənən tədbirləri alqışlayırıq. Biz Azərbaycana, bütün Azərbaycan xalqına xüsusi karantin rejimindən tezliklə çıxmağı və epidemiya ilə bağlı çətinlikləri adlamağı səmimi qəlbdən arzulayırıq".

Qusar rayonunun Yasab kəndindən Mafiyat Bədəlova: "Möhtərəm cənab Prezident, xalqımızın sosial rifahının və sağlamlığının dövlətimiz üçün ən ümdə vəzifə olması biz vətəndaşları sevindirməyə bilməz. Çətin koronavirus dövründə biz bunun bir daha şahidi olduq. Ulu öndərimiz Heydər Əliyevin adını daşıyan Fondun bizə yardım etməsinə, bizi sevindirməsinə görə Sizə "Çox sağ olun!" deyirik. Allah Sizə və Mehriban xanım Əliyevaya uzun ömür, cansağlığı versin. Ümid edir və inanıram ki, dünyanı ağuşuna alan bu COVID-19 infeksiyası tez bir zamanda başımızın üstündən gedəcək, Azərbaycan yenidən çağlayan və dinamik inkişaf edən həyatına dönəcək".

Gədəbəy rayonundan Ənvər İsgəndərov, Şahin Kazımov, Həsrət Məhərrəmov və Famil Alıyev yazırlar: "Hörmətli cənab Prezident, dünyada gözlənilmədən yayılan koronavirusla əlaqədar Sizin atdığınız qabaqlayıcı tədbirlər Azərbaycan xalqını yaşaya biləcəyi acınacaqlı vəziyyətdən çıxardı. Bir çox ölkələr isə bu bəlaya hazırlıqsız yaxalandı və təsirli tədbirlər görə bilmədiyindən kütləvi yoluxma və ölüm hallarına məruz qaldı. Bu müqayisə özlüyündə Azərbaycanın qüdrətinin təzahürüdür. Sizin və Mehriban xanım Əliyevanın xalqa müraciətlərinizdə yer alan fikirlər, görülən əməli tədbirlər xalqa nə qədər bağlı olduğunuzu bir daha göstərdi. Xalqımız da Sizə bağlıdır və Sizi sevir. Siz dediyiniz kimi, "Biz birlikdə güclüyük! Sizə daim sağlamlıq və firavan həyat arzu edirik".

Naxçıvan şəhərindən tələbə Sultan Məmmədzadə: "Hörmətli cənab Prezident, mən bir gənc olaraq Sizinlə fəxr edirəm. Təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan müstəqil Azərbaycanın bugünkü inkişafı Sizin müvəffəqiyyətlə davam etdirdiyiniz uğurlu siyasətlə bağlıdır. Hazırda dünyada sürətlə yayılan koronavirus pandemiyasının Azərbaycanda yayılmasının qarşısını almaq məqsədilə hazırlanan və həyata keçirilən dövlət proqramı bir daha sübut edir ki, Siz xalq üçün çalışırsınız və hər zaman hər bir vətəndaşınızın yanındasınız. Bu çətin günlərdə xalqımızın rifahı üçün gördüyünüz işlər biz gəncləri də ölkəmiz və xalqımız üçün əlimizdən gələni etməyə həvəsləndirir. Biz Azərbaycan xalqı olaraq əminik ki, bu problemlər Sizin rəhbərliyinizlə tezliklə həll olunacaqdır. Allah Siz başda olmaqla bütün xalqımızı qorusun!".

Bakının Nizami rayonundan Nəzrin Nuriyeva: "Əziz və qayğıkeş Prezidentimiz, mən bir vətəndaş olaraq Sizin xalqımız üçün etdiklərinizin vurğunuyam. Ölkəmizin, həmçinin bəşəriyyətin keçdiyi bu əziyyətli yolda Siz qəti və dəqiq qərarlar alaraq bir çox ölkələrə nümunə oldunuz. Koronavirus pandemiyasının yayıldığı andan bəri verdiyiniz qərarlar sayəsində hazırda ölkəmizdə yoluxma və ölüm halları digər ölkələrlə müqayisədə çox azdır. Təkcə səhiyyə ilə bağlı deyil, həmçinin digər sahələrdə də verdiyiniz qərarlar ölkəmizi yüksək zirvələrə qaldırdı. Sizin təhsil sisteminə göstərdiyiniz qayğını biz şagirdlər hiss edir və qürurlanırıq. Sizin siyasətinizin nəticəsidir ki, koronavirus pandemiyası ilə mübarizədə dünyanın ən inkişaf etmiş ölkələrini qabaqlayan Azərbaycan nümunəvi ölkə oldu. Xalqımıza belə önəm və diqqət verdiyiniz üçün həm öz adımdan, həm də ailəmin adından Sizə dərin minnətdarlığımı bildirirəm. Mən 9-cu sinif şagirdi olaraq Sizinlə fəxr edirəm və Sizi çox istəyirəm. Yaxşı ki, bizim Prezidentimizsiniz".

Şirvan şəhərindən Laləzər Məmmədova: "Çox hörmətli cənab Prezident, bu gün dünyanın böyük bir bəla ilə üz-üzə qaldığının şahidiyik. Dünyada qlobal pandemiya hesab olunan koronavirus infeksiyasının ölkəmizdə yayılmasının qarşısının alınması və vətəndaşlarımızın, xüsusilə də məktəblilərin, 65 yaşdan yuxarı olan insanların təhlükəsizliyini təmin etmək məqsədilə verdiyiniz qərarlar, gördüyünüz təxirəsalınmaz tədbirlər, ən əsası, Sizin çağırışınız ətrafında xalqımızın həmrəyliyə dəvət olunması çox mühüm təşəbbüs və addımlardan oldu. Cənab Prezident, Siz hər zaman vətəndaşların yanında olub, onların sevincinə də, kədərinə də şərik çıxmısınız, öz qayğınızı əsirgəməmisiniz. Biz, Azərbaycan xalqı olaraq inanırıq ki, məhz Sizin rəhbərliyinizlə bu çətin günlərdən də alnıaçıq çıxacağıq. Yaşlı nəslin nümayəndələri olaraq dövlətimiz tərəfindən bizə göstərilən qayğıya görə Sizə minnətdarıq. Mən təqaüddə olan müəllim kimi Sizin müəllimlərə verdiyiniz dəyəri, dəstəyinizi görür və Sizə Azərbaycan müəllimi adından öz təşəkkürümü bildirirəm. Siz xalqımızı qoruyursunuz, Allah da Sizi qorusun! Amin!".

Quba rayonundan Minbər Osmanov: "Hörmətli cənab Prezident, bütün dünyanı bürüyən koronavirus pandemiyası Sizin uzaqgörənliyiniz sayəsində ölkəmizdə geniş yayılmayıb. Sizin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın ölkə vətəndaşlarına göstərdiyiniz diqqət və qayğı hər kəsə bəllidir. Cənab Prezident, Sizin düşünülmüş siyasətiniz nəticəsində Azərbaycan COVID-19 pandemiyasına qarşı mübarizədən dünya dövlətləri arasında ən az itki ilə çıxan ölkələrdən biridir. Əlbəttə, bunun əsas səbəbi Sizin xalqla birlikdə olmağınızdır. Siz hər zaman vurğulayırsınız ki, "Mən hər bir azərbaycanlının Prezidentiyəm". Biz də bunu həmişə hiss edirik. Bu çətin dövrdə Sizin xalqın yanında olmanız buna bariz nümunədir. Məhz buna görə Sizə minnətdarıq".

Naxçıvan Muxtar Respublikasının Sədərək rayonundan Murad Abbaslı: "Möhtərəm cənab Prezident, Azərbaycan xalqı tarixin çox ağır sınaqlarından çıxıb. Hazırda üzləşdiyimiz koronavirus pandemiyasını da bunlardan biri hesab edirik. Pandemiyanın başladığı ilk gündən indiyə qədər gördüyünüz işlərlə vətəndaşların sağlamlığı və təhlükəsizliyi tam nəzarət altına alınmışdır. Sizin uzaqgörənliyiniz sayəsində Azərbaycan bu gün pandemiyadan ən az itki verən ölkələr sırasındadır. Siz bu savaşda hər bir vətəndaşın yanında olduğunuzu bir daha göstərdiniz. Bizim yaşadığımız hazırkı dövr dünya tarixinin çox əlamətdar bir mərhələsidir. Qərinələr, əsrlər keçəcək, gələcəkdə bir çoxları 2020-ci ili "koronavirus ili" kimi xatırlayacaq. Bəzi insanlar üçün bu xatirə acı olsa da, ümumilikdə xalqımız üçün növbəti mübarizlik, mətinlik, birlik rəmzi kimi söylənəcək. Hər şeyə görə təşəkkürlər, cənab Prezident!".

# Ulu öndər Heydər Əliyevin ideyaları uğurlarımızın qarantıdır

## Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Məşhur Məmmədovun yap.org.az-a müsahibəsi



***- Məşhur müəllim, müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyevin anadan olmasının 97-ci ildönümü ərəfəsindəyik. Dahi şəxsiyyətin dövlətimiz, xalqımız qarşısındakı xidmətlərini necə ümumiləşdirərdiniz?***

- Bugünkü müstəqil, güclü, qüdrətli Azərbaycan ulu öndər Heydər Əliyevin şah əsəridir. Ümummilli Lider harada yaşamasından asılı olmayaraq hər bir azərbaycanlının qəlbində "Müstəqil Azərbaycan" adlı abidəni ucaltdı. 29 ilə yaxın müstəqillik tarixinə malik olan Azərbaycanın müstəqilliyimizin ilk illərində yaşadıqları yaddaşlardadır. Azərbaycan parçalanmaq, dağılmaq, bir dövlət olaraq dünyanın siyasi xəritəsindən silinmək, vətəndaş müharibəsi təhlükəsini yaşayırdı. Belə çətin vaxtlarda xalqımız özünü öz xilaskarına- ulu öndər Heydər Əliyevə tutdu. 1993-cü ildə Ümummilli Liderin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra Azərbaycan sözün əsl mənasında müstəqil, azad, firavan ölkə sevincini yaşamağa başladı. Dahi şəxsiyyətin böyük idarəçilik qabiliyyəti, təcrübəsi, ən əsası xalqına, dövlətinə, Vətəninə sevgisi sayəsində qarşıdakı dövrün uğurlu inkişaf strategiyası işlənib hazırlandı, Azərbaycanın möhkəm təməl üzərində inamla irəliləməsi üçün düzgün yollar müəyyənləşdirildi. Bu gerçəklik də hər zaman xüsusi qeyd edilməlidir və edilir ki, Azərbaycanın müstəqil dövlət quruculuğuna aparan yolu ulu öndər Heydər Əliyevin ölkəmizə ilk dəfə rəhbərlik etdiyi dövrdən başlamışdır. Onun həmin illərdə gördüyü işlərə diqqət yetirdikdə gələcəkdə Azərbaycanı müstəqil dövlət kimi görmək istəyi özünü qabarıq şəkildə göstərir. Azərbaycanlı gənclərin keçmiş İttifaqın ən nüfuzlu ali məktəblərində təhsil almağa göndərilməsi, müstəqil dövlətin qarantı olan ordu üçün hərbi kadrların yetişdirilməsi məqsədilə C. Naxçıvanski adına hərbi liseyin yaradılması kimi biri-birindən önəmli addımlar Azərbaycanın müstəqil gələcəyinə hesablanmış addımlar idi. Azərbaycançılıq ideyası dahi şəxsiyyətin hakimiyyətinin hər iki dövründə həyata keçirilən siyasətin, görülən işlərin əsas qayəsini təşkil edirdi.

1993-cü ildən başlanan inkişaf yolunun uğurlarını bir müsahibə, sual çərçivəsində əhatə etmək qeyri-mümkündür. Bu fikri böyük inamla və fəxrlə qeyd edirik ki, Azərbaycan kimi müstəqil, iqtisadi cəhətdən qüdrətli, dünya birliyinin fəal üzvü, böyük söz sahibi olan bir dövləti yaratmaq xilaskar kimi Ulu Öndərə nəsib oldu. 1993-2003-cü illər Azərbaycanın tarixinə dirçəliş, inkişaf dövrü kimi yazılıb. Dövlətçiliyimizin əsasları yaradıldı. 1995-ci il 12 noyabrda Milli Konstitusiyamız ümumxalq səsverməsi yolu ilə qəbul olundu. İqtisadi və siyasi islahatların vəhdətliyi əsasında Azərbaycan beynəlxalq münasibətlər sistemində yerini və rolunu müəyyənləşdirdi, ən əsası mühüm problemimiz olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində mühüm addımlar atıldı.

***- Təbii ki, hər bir ölkənin inkişafında istisadi amil əsas rol oynayır. Ümummilli Liderin müəllifi olduğu neft strategiyası Azərbaycanın qarşısında hansı imkanları açdı?***

- Ulu öndər Heydər Əliyevin " İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir" tezisi hər zaman öz aktuallığını qoruyur. Ümummilli Liderin iqtisadiyyatın inkişafında neft amilinə önəm verməsi uzaqgörən siyasətinin nəticəsi idi. Ölkəmizin malik olduğu təbii resurslardan səmərəli istifadə etmək məqsədilə 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanması ilə Azərbaycanın yeni neft erası başladı. Ulu Öndərin ölkəmizdə yaratdığı sabitlik və normal biznes mühiti Azərbaycanla iqtisadi əlaqələrin qurulmasında maraqlı olan dövlətlərin sayının artmasını şərtləndirdi. Bu mühüm məqamı da qeyd edək ki, ulu öndər Heydər Əliyevin gərgin səyləri nəticəsində 1994-cü il mayın 12-də cəbhə xəttində atəşkəs sazişinin imzalanması ölkədə sabitliyin təminatında, həmçinin digər sahələrdə mühüm işlərin görülməsində əsas rol oynadı. Azərbaycan qısa müddətdə böyük investisiyalar məkanına çevrildi. Bu gün ölkə iqtisadiyyatına 270 milyard dollara yaxın investisiyanın yatırılması ümummilli lider Heydər Əliyevin uğurlu neft strategiyasının nəticəsidir.

"Əsrin müqaviləsi"nin imzalanmasından sonra Azərbaycanın enerji sektorunda qazanılan uğurların xronologiyasına diqqət yetirmək kifayətdir. Çoxlarına əfsanə kimi görünən BTC və BTƏ neft-qaz kəmərlərinin reallığa çevrilməsi Azərbaycanı regional inkişafın aparıcı qüvvəsinə, dünyanın enerji təhlükəsizliyinin təminatçısına çevirdi. Bu layihələr, öz növbəsində, əməkdaşlığın regional çərçivədən beynəlxalq müstəviyə keçməsini təmin etdi. Belə ki, 2017-ci ildə "Yeni əsrin müqaviləsi" imzalandı, 2018-ci ildə Cənub Qaz Dəhlizinin rəsmi açılışı oldu, həmin ildə TANAP istifadəyə verildi, 2020-ci ildə isə TAP-ın istifadəyə verilməsi nəzərdə tutulub. Azərbaycanın iştirakçısı və təşəbbüsçüsü olduğu layihələrin uğurlu icrası nəticəsində həm iştirakçı, həm də dünya dövlətlərinin dayanıqlı inkişafı təmin edilir.

Azərbaycanın enerji sektorunda qazandığı uğurlar hər zaman önə çəkilən bu fikrin də təsdiqidir ki, təbii ehtiyatlardan düzgün istifadə edildikdə o, zəngin sərvətə çevrilir. Neft gəlirlərinin idarə olunmasında şəffaflığın qorunması, nəsillər arasında ədalətli bölüşdürülməsinin təmin edilməsi məqsədilə 29 dekabr 1999-cu ildə Dövlət Neft Fondunun yaradılması da ulu öndər Heydər Əliyevin uzaqgörən siyasətinin göstəricisi idi. Bu ideya Ümummilli Liderin "Neft Azərbaycanın ən böyük sərvəti olub, xalqa, özü də təkcə indiki nəslə deyil, həm də gələcək nəsillərə mənsubdur" tezisində aydın ifadəsini tapıb. Hazırda Fondun aktivlərinin həcmi 41 milyard dollardan artıqdır. Neft gəlirlərinin düzgün istiqamətləndirilməsi nəticəsində həyata keçirilən sosial-iqtisadi layihələr ölkəmizin hərtərəfli inkişafina geniş imkanlar yaradır.

***- Məşhur müəllim, ulu öndər Heydər Əliyevin xidmətlərindən bəhs edərkən bu gün ölkənin ictimai-siyasi həyatında aparıcı rol oynayan Yeni Azərbaycan Partiyasının yaradılmasını xüsusi qeyd etməliyik....***

- 1992-ci il noyabrın 21-də xalqın istəyi, zamanın tələbi ilə yaradılan Yeni Azərbaycan Partiyası dövlətə, xalqa xidməti fəaliyyətinin əsas istiqaməti kimi qəbul edib, bunu qət etdiyi 28 ilə yaxın zəngin və şərəfli yolda təsdiqləyir. Təsis konfransını 550 nümayəndənin iştirakı ilə keçirən Yeni Azərbaycan Partiyasının sıralarında bu gün 750 mindən artıq üzv birləşir. Bu statistika Heydər Əliyev ideyalarına sədaqəti, son 16 ildən artıq dövrdə bu siyasi kursu uğurla davam etdirən cənab İlham Əliyevin həyata keçirdiyi siyasətə dəstəyin göstəricisidir. Partiyanın hər bir üzvü dahi şəxsiyyətin yaradıcısı olduğu Yeni Azərbaycan Partiyasında təmsil olunmaqdan, Ulu Öndərin ideyalarının gercəkləşməsində və təbliğində iştirak etməkdən qürur duyur. Tutduğu yola sadiqliyi, sözlə əməl birliyi partiyaya milyonların sevgisini qazandırır. YAP-ın ölkəmizdə keçirilən bütün seçki proseslərindən uğurla çıxması, qələbələr partiyası kimi nüfuz qazanması da bu amilə əsaslanır. "Güclü dövlət, yüksək rifah!" hər zaman partiyanın fəaliyyətinin əsasını təşkil edir. Məhz bu amillər Yeni Azərbaycan Partiyasını xalqın partiyası kimi tanıdır və nüfuz qazandırır. Partiyanın tarixinə yazılan qələbələr ulu öndər Heydər Əliyevin ideyalarının təntənəsidir. Ümummilli Liderin "Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır" tezisi bütün dövrlərdə öz aktuallığını qoruyur, gələcək fəaliyyətinin aydın mənzərəsini yaradır.

Azərbaycana hansı tərəfdən baxsaq, ulu öndər Heydər Əliyevin xidmətlərinin miqyasının genişliyini, zənginliyini görərik. Ulu Öndərin fəaliyyətinin hər bir dövrü, hər bir sahəsi tədqiqat mövzusudur.

***- 2003-cü ildən başlanan yol Heydər Əliyev yolunun davamı kimi xarakterizə olunur. Ötən 16 ildən artıq dövr Azərbaycanın tarixinə hansı uğur səhifələrini yazıb?***

- Müasirləşmə, yeniləşmə, təkmil islahatlar son illərin uğurlarını şərtləndirən əsas amillərdir. Cənab İlham Əliyev 2003-cü ildə keçirilən andiçmə mərasimində Azərbaycanın daha qüdrətli, güclü dövlətə çevrilməsi üçün Heydər Əliyev siyasi kursunun davam etdiriləcəyi vədini vermişdi və son 16 ildən artıq dövrdə bunu atdığı hər addımda təsdiqlədi. Bu gün dayanıqlı iqtisadi inkişafa malik, beynəlxalq münasibətlər sisteminin fəal üzvü olmaqla yanaşı, müxtəlif sahələri əhatə edən beynəlxalq tədbirlərin keçirilməsi üçün ideal məkan secilməsi deyilənlərə bariz nümunədir. Azərbaycan bu gün dünyanın xoşbəxt, islahatçı ölkələri sırasında təmsil olunmaqla inkişaf modelinin digər ölkələr üçün cəlbedici olduğunu nümayiş etdirir. Möhtərəm Prezidentimiz 2003-cü ildə iqtisadi artımın qeyri-neft sektorunun hesabına olmasının prioritetliyini açıqlayarkən bu reallığı önə çəkdi ki, əgər inkişaf etmiş ölkələrin təcrübəsinə nəzər salsaq görərik ki, həmin ölkələrin uğurlarının təməlində ideya, fikir, innovasiya, elmi-texniki tərəqqi dayanır.

Məhz iqtisadiyyatımızın düzgün əsaslar üzərində qurulması, idarəetmə sistemində təkmilləşmə, zamanın tələblərinə görə aparılan islahatlar bütün istiqamətlərdə əhəmiyyətli uğurlara yol açdı. Ölkəmizdə vitse-prezidentlik institutunun yaradılması, ölkə Prezidentinin Sərəncamı ilə Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın Azərbaycanın Birinci vitse-prezidenti təyin olunması davamli uğurlarımıza böyük töhfələr verdi. Möhtərəm Prezidentimiz İlham Əliyevin, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın həyata keçirdikləri düşünülmüş siyasət nəticəsində Azərbaycanın qazandığı uğurların miqyası geniş və çoxçaxəlidir.

İslahatları yenilik, tərəqqi, inkişaf, yeni yanaşma kimi dəyərləndirən cənab İlham Əliyevin təkcə cari ilin ötən dövründə gördüyü işlərə diqqət yetirmək kifayətdir. Dünyanı bürüyən pandemiya hər bir ölkənin iqtisadi və sosial imkanlarını ortaya qoydu. Dövlətimizin başçısının Sərəncamı əsasında Nazirlər Kabinetinin 4 sektoru, 20 fəaliyyət sahəsini əhatə edən 10 yardım proqramının ehtiva olunduğu Tədbirlər Proqramının təsdiqlənməsi ölkə Prezidentinin hər zaman olduğu kimi, bu gün də vətəndaşının yanında olduğunu təsdiqlədi. Sahibkarlara dövlət tərəfindən maddi dəstəyin göstərilməsi, işsiz və karantin dövründə müvəqqəti işsiz olan 600 min vətəndaşa 190 manat birdəfəlik yardımın verilməsi, koronavirus xəstələri ilə işləyən həkimlərin, həmçinin yaşı 65-dən yuxarı olan tənha yaşlılara sosial xidmət göstərənlərin sosial müdafiəsinin gücləndirilməsi və sair kimi addımlar insan amilinə verilən dəyəri, eyni zamanda, Azərbaycan dövlətinin iqtisadi imkanlarını təqdim edir. Pandemiyaya qarşı mübarizə tədbirləri çərçivəsində görülən işlər, atılan addımlar ölkəmizin möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə bu çətinliklərdən də uğurla, az itki ilə çıxacağına əminliyi artırır. Ölkə ictimaiyyəti cənab İlham Əliyevin "Biz birlikdə güclüyük!" çağırışına dəstəyini əməli fəaliyyəti ilə göstərir.

Bu gün xalqımız tam əmindir ki, Heydər Əliyev yolu Azərbaycana hələ bundan sonra da daha böyük uğurlar qazandıracaq, inkişaf etmiş ölkələr sırasında addımlamaq istəyini reallaşdıracaq.

# Erməni səfir "açdı sandığı, tökdü pambığı"

**Ermənistanın Vatikanda, Portuqaliyada və Suveren Malta ordenindəki keçmiş səfiri Mikael Minasyan özünün Facebook səhifəsində "Yalanın sonu" silsiləsində və "Mən, Vanetsyan və Paşinyan: rədd olunmuş təklif" başlıqlı canlı videobağlantısında ölkənin baş naziri Nikol Paşinyanın və Milli Təhlükəsizlik Xidmətinin (MTX) sabiq deirektoru Artur Vatesyanın ifşasını edib.**



*Mikael Minsayan Nikol Paşinyanın Artur Vanetsyan vasitəsi ilə göndərdiyi təklifini niyə və necə rədd etdiyini açıqladı*

ANALİTİK FAKT

SİA-nın məlumatına görə, keçmiş səfir ona ünvanlanan çoxsaylı suallara məhz silsilə xarakterli canlı video-bağlantılarla cavab verəcəyini deyib və bildirib ki, onun A.Vanetsyanla 2019-cu ildəki görüşü məhz qarşı tərəfin təşəbbüsü ilə baş tutub.

### "Artur Vanetsyan dedi: mən burada MTX direktoru qismindəyəm və Nikol Paşinyanın adından danışmaq səlahiyyətindəyəm"

"Əgər xatirinizdədirsə, A.Vanetsyan bu görüş haqqında bəyan etmişdi ki, bəli, o M.Minasyanla N.Paşinyanın təlimatı əsasında görüşüb. Beləliklə, A.Vanetstan mənə zəng etdi, yeri gəlmişkən, mən A.Vanetsyanı yaxşı tanıyırdım, ancaq onunla heç vaxt yaxın olmamışam, biz heç vaxt dost olmamışıq", deyə qeyd edən Minasyan əlavə edib ki, Vanetsyan ona zəng edərkən, Romada olması haqqında məlumatlı olduğunu deyib: "Mən artıq iki-üç ay idi ki, səfir deyildim, ancaq Romada yaşayırdım. O dedi: mən səninlə görüşmək istəyirəm. Mənim hansı məsələ ilə bağlı sualıma isə belə o cavab verdi: N.Paşinyanın sənə mesajı var. Mən də dedim ki, çox yaxşı. Biz Romanın mərkəzində yerləşən "De Russie" otelinin kafesində görüşdük. O, özünü təqdim edərək dedi: mən burada MTX direktoru qismindəyəm və N.Paşinyanın adından danışmaq səlahiyyətindəyəm. Mən buyurun, deyə cavab verdim".

### "Sən siyasətdən kənar adama çevrilirsən, Ermənistanın hüdudlarından kənar xoşbəxt həyat yaşayırsan və..."

Minasyan Vanetsyanın təklif səsləndirdiyini bildirib. Həmin təklif isə belə olub: "Sən (Minasyan) hər hansı fonda, ya da dövlət fonduna simvolik məbləğdə pul ödəyirsən və bundan sonra heç vaxt Ermənistana geri dönmürsən, ən uzağı ilk bir neçə ildə. O insanların ki, səninlə bu və digər şəkildə bağlılıqları var, onlar da sənə qulaq asırlar və N.Paşinyana qarşı mübarizələrinə son qoyurlar. Sən siyasətdən kənar adama çevrilirsən, Ermənistanın hüdudlarından kənar xoşbəxt həyat yaşayırsan və danışdığımız kimi, bütün cinayət prosesləri dərhal aradan götürülür, təqiblər də dayandırılır. Söhbət mənim atamdan və dostlarımdan gedir və biz yaxşı dost olmaqla yanaşı, həm də bir-birimizi tanımayan şəxslərə çevrilirik".

"Heç vaxt səmimi şəkildə məsuliyyətsiz, riyakar, xalqını satan xəyanətkar, təəssüflə əlavə etməliyəm ki, dövlətin düşməni kimi tanıdığım adamlarla razılığa gələ bilməzdim"

Minasyan öz video-bağlantısında qeyd edib ki, N.Paşinyanın təklifini rədd edib və bunun səbəblərini sadalayıb. "Mən sizə nəyə görə N.Paşinyana və A.Vanetsyana rədd cavabı verməyimi izah etmək istəyirəm. Yeri gəlmişkən, A.Vanetsyan qasid rolunu oynayıb", deyən Minasyan davam edib: "Mən N.Paşinyana ona görə rədd cavabı verdim ki, özümün yaxşı yaşadığım halda, mənim xalqımın və vətənimin belə bir vəziyyətə olmasını özümə bağışlaya bilməzdim. Halbuki mən başqalarından fərqli olaraq həm yazıb, həm də demişəm ki, bizi fəlakət gözləyir. Mən heç vaxt səmimi şəkildə məsuliyyətsiz, riyakar, xalqını satan xəyanətkar, təəssüflə əlavə etməliyəm ki, dövlətin düşməni kimi tanıdığım adamlarla razılığa gələ bilməzdim, inanın ki, siz də belə fikirdəsiniz".

### "Nikol Paşinyanın təklifini rədd edərkən bilirdim ki, məni nə gözləyir və mən hansı yolları keçməliyəm"

"Bu gün Ermənistanda, erməni xalqı ilə və Ermənistan ətrafında nələr baş verirsə, bu sadəcə dövlət satqınçılığıdır, mənim başqa sözüm də yoxdur", deyən Minsyan əlavə edib: "Bəs mən xoşbəxt və yaxşı yaşaya bilərdimmi? Sözsüz ki, hə. Mən bunu edə bilərdim və edə bilərəm də. 2018-ci ilin noyabrında mən Fövqəladə və Səlahiyyətli səfir postunu tərk edəndən sonra beynəlxalq strukturlardan, şirkətlərdən və özəl şirkətlərdən, həmçinin digər ölkə hökumətlərindən çoxsaylı iş təklifləri aldım, ancaq həmin təkliflərdən imtina etdim. Pna görə imtina etdim ki, mən dövlətimin və xalqımın necə məhv olmasına seyirci qala bilməzdim. Mən N.Paşinyanın təklifini rədd edərkən bilirdim ki, məni nə gözləyir və mən hansı yolları keçməliyəm. Mən öz yoluma mehmanxanadan başladım - N.Paşinyana rədd cavabını çatdırarkən. Bilirdim ki, mənə qarşı cinayət işlərinin sayı artırılacaq. Ancaq mən inanıram və bilirdim ki, heç nə tapa bilməyəcəklər, çünki heç nə yoxdur".

### "Mənimlə bəlkə də 15 il əvvəl görüşən, danışan insanları sorğuya çəkirdilər. İndi də həmin situasiyadır"

Keçmiş səfir həmçinin bildirin ki, inqilabdan iki il sonra bütün güc strukturları iliyinə qədər onun fəaliyyəti barədə araşdırmalar aparıblar.

"Mənimlə bəlkə də 15 il əvvəl görüşən, danışan insanları sorğuya çəkirdilər. İndi də həmin situasiyadır. Baxmayaraq ki, dövlət başçısı, baş nazir Nikol Paşinyan bəyan edir ki, mən strateji obyektləri özəlləşdirmişəm, milyardlar oğurlamışam və s... təkrar edirəm hər hansı talan, oğurluq haqqında bir dənə də olsun fakt yoxdur ki, bunu mənə sübut etsinlər, bunu siz də yaxşı bilirsiniz. Mən sizin gözünüzün içinə baxaraq dəqiq demək istəyirəm ki, heç vaxt oğurluq etməmişəm və əlimi Ermənistan respublikasının büdcəsinə əlimi dürtməmişəm. Mən, məni utandıracaq heç nə etməmişəm. Daha çox əlavə etmək istəyirəm ki, mən burada rəhbərlik etmək, lider olmaq üçün deyiləm..."

"İnsanların problemləri ilə məşğul olmaq, onların köməyinə çatmaq, dəstəkləmək yerinə repressiyalarla və klounada ilə məşğuldur"

"Bilirəm ki, bugünkü rəhbərlik bunu anlamır", deyən sabiq səfir bildirib ki, ölkə rəhbərliyi oyunbazlıqlarla məşğuldur: "Bütün dövlət aparatı insanların problemləri ilə məşğul olmaq, onların köməyinə çatmaq, dəstəkləmək yerinə repressiyalarla və klounada ilə məşğuldur, hər biri. Yerdə qalan insanlara isə nə olursa-olsun. İşığı kəsirlər, eybi yoxdur, zəng edəcəyik, şoular təşkil edib, layvlar göstərəcəyik. Zəng edib deyəcəyik ki, siz yaxşı yaşayırsınız, sadəcə bunu bilmirsiniz, yox pis yaşayırsınızsa, artıq bunun günahkarlarının kimlər olduğunu özünüz bilirsiniz...

Və sonda, mən hüquq-mühafizə orqanları və prokurorluq sistemində çalışanlara müraciət edirəm. Hər şey qeydə alınır və mən sizdən xahiş edirəm, inanın ki, siz mühakimə olunarkən deyə bilməyəcəksiniz ki, əmrləri icra edirdiniz".

Qeyd edək ki, M.Minsyanın video-bağlantıları silsilə xarakterli olduğu üçün, onun N.Paçunyan hökumətini ifşa edən növbəti fikirlərini də diqqətə çatdıracağıq.

**Rövşən RƏSULOV**

# ABŞ: "Çin "səhv edib" və bunu gizlətməyə çalışıb"



ABŞ Prezidenti Donald Tramp Çin mallarına olan tariflərin artırılmasını ÇXR-nın koronavirus, COVID-19 barədə dünya ictimaiyyətinə məlumat verməməsinə görə məsuliyyət daşıması üçün olan tədbirlərdən biri hesab etdiyini söyləyib. SİAxarici mətbuata istinadən xəbər verir ki, bu sözləri ABŞ prezidenti "Fox News"-a müsahibəsində deyib. "Bu, ən pis cəzadır. Bunu deyəcəyəm. Hamımız çətin oyun oynayırıq, bu şahmat və ya pokerdir. Bunlar dama yarışı deyildir, sizə deyəcəyim budur", deyə Amerika lideri suala dair cavabında "Fox News"-a bildirib.

Trump, tariflərin danışıqlarda əla bir vasitə, alət olduğunu da əlavə edib. Koronavirusun görünüşünün qəsdən və ya təsadüfi olub olmadığını soruşduqda, siyasətçi, "Çin "səhv edib" və bunu gizlətməyə çalışıb", deyə söyləyib.

"Çinə gedən insanları dayandırdılar, ancaq Çindən dünyaya səyahət edən insanları dayandırmadılar", deyə Tramp narazılını bildirib. Siyasətçi, Çin səlahiyyətlilərinin problemin mövcud olduğunu bildiyinə, lakin buna qarşı çıxdıqlarına inandığını da gizlətməyib. Çin isə öz növbəsində dəfələrlə koronavirus məlumatlarını gizlətmək iddialarını rədd edib.

## Avtomobilində silah-sursat gəzdirən şəxs saxlanılıb



Bakı şəhər Baş Polis İdarəsinin Cinayət Axtarış İdarəsinin əməkdaşları tərəfindən əllərdə qanunsuz saxlanılan odlu silah-sursatın aşkar edilməsi istiqamətində növbəti əməliyyat tədbiri həyata keçirilib. Daxili İşlər Nazirliyindən SİA-ya verilən məlumata görə, Baş İdarəyə Rəşad adlı şəxsin üzərində qanunsuz olaraq silah gəzdirməsi barədə əməliyyat məlumatı daxil olub. Keçirilən təxirəsalınmaz tədbir nəticəsində həmin şəxs, paytaxt sakini, əvvəllər məhkum olunmuş Rəşad Qasımov tutulub. Onun üzərində şəxsi axtarış aparılan zaman 1 ədəd "Licenced Trodemarkof NEW" markalı tapança, 6 ədəd patron, 1 ədəd patron darağı və 1 ədəd bıçaq aşkar olunaraq götürülüb. Əməliyyat tədbirlərinin davamı olaraq həmin şəxsin idarə etdiyi "Hyundai" markalı avtomobilə baxış zamanı 1 ədəd nömrəsi silinmiş "TOZ 8" markalı ov tüfəngi, 1 ədəd "İJ-53" markalı pnevmatik tapança, 1 ədəd lüləsi və qundağı kəsilmiş "TOZ B" markalı ov tüfəngi, 1 ədəd "Gamo" markalı pnevmatik tüfəng, 14 ədəd patron və 1 ədəd bıçaq aşkar olunaraq götürülüb. Faktla bağlı Rəşad Qasımov barəsində Baş İdarədə Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılıb, istintaq tədbirləri davam etdirilir.

# Rusiyada 10 mindən çox şəxsdə koronarivusa yoluxma qeydə alındı

Rusiyada koronavirusa yoluxma göstəriciləri sürətlə artmaqdadır. SİA-nın məlumatına görə, ölkədə son sutka ərzində 10 581 nəfər koronavirusa yoluxub, 76 nəfər isə həyatını itirib. Bu günə qədər Rusiyada 145 268 nəfər infeksiyaya yoluxub, ölənlərin sayı 1 356 nəfərə çatıb. Ölkə ərazisində virusdan ümumilikdə 18 095 nəfər sağalıb, 125 817 nəfərin müalicəsi isə davam edir.



# Azərbaycanda sifarişli cinayətlər törədən dəstə zərərsizləşdirilib

***Polis və prokurorluq əməkdaşları tərəfindən həyata keçirilmiş təxirəsalınmaz istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri nəticəsində ədalət mühakiməsinin həyata keçirilməsinə mane olmaq məqsədilə qabaqcadan əlbir olan bir qrup şəxs halında birləşib müxtəlif cinayət əməlləri törətmiş dəstə üzvləri həbs ediliblər.***



Respublika Baş Prokurorluğu və Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətlərindən SİA-ya verilən birgə məlumata əsasən, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində Cinayət Məcəlləsinin bir neçə maddəsi ilə istintaqı tamamlanmış və təqsirləndirilərək barəsində həbs qətimkan tədbiri seçilmiş Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sabiq əməkdaşı Vüsal Əliyevin digər cinayət əməlləri də ortaya çıxıb.

Daxili İşlər Nazirliyi Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşları tərəfindən həyata keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində müəyyən edilib ki, Vüsal Əliyev işlədiyi dövrdə yol verdiyi qanun pozuntularının aşkar olunmasının və anasına saxta sənədlər əsasında təqaüd təyin etdirməsi faktının üzə çıxmasında səbəbkar kimi işlədiyi nazirliyin adı təhlükəsizlik səbəbindən açıqlanmayan məsul əməkdaşını günahkar bildiyindən onu döydürüb cəzalandırmaq qərarına gəlib. O, bu yolla həmin şəxsi məhkəmədə ifadəsindən imtinaya məcbur etməyə nail olmaq istəyib.

Vüsal Əliyev cari ilin mart ayının 19-da barəsində keçiriləcək məhkəmə prosesində həmin əməkdaşın şahid qismində iştirakının qarşısının alınması üçün keçmiş iş yoldaşının döyülməsini təcridxanada onunla eyni kamerada qalan Cinayət Məcəlləsinin quldurluq maddəsilə təqsirləndirilən Mirafiq Bəşirova pul müqabilində sifariş edib. Mirafiq Bəşirov isə öz növbəsində azadlıqda olan qardaşı Nurlan Bəşirovla əlaqə saxlayaraq həmin şəxsin məhkəmə iclasında şahid qismində iştirakının qarşının alınmasının vacib olduğunu diqqətə çatdırıb. Nurlan Bəşirov isə tanışları Zaur Cəlilli, Bəhruz Əhmədov, Sərxan Çobanov, İsamuddin Babayev və Fariz Daşdəmirovla qabaqcadan əlbir olan bir qrup şəxs halında birləşərək sifarişi yerinə yetirmək üçün əvvəlcədən plan hazırlayıblar.

Belə ki, həmin şəxsə məxsus zəruri məlumatlar cinayətkar qrupun üzvü Bəhruz Əhmədov vasitəsilə əldə edildikdən sonra Sərxan Çobanov və İsamuddin Babayev martın 19-da zərərçəkənin yaşadığı evin yaxınlığında idarə etdiyi avtomobili saxlatdırıb ona müxtəlif dərəcəli bədən xəsarətləri yetiriblər. Hadisədən sonra Nurlan Bəşirov, Zaur Cəlilli, Fariz Daşdəmirov, Sərxan Çobanov və İsamuddin Babayev görüşüb vəd edilmiş pulu aralarında bölüblər. Baş İdarənin əməkdaşları tərəfindən həyata keçirilən təxirəsalınmaz tədbirlər nəticəsində həmin şəxslər saxlanılmış, onlardan dördünün üstündən narkotik vasitə və psixotrop maddə aşkar edilərək götürülmüşdür.

Araşdırma zamanı həmçinin müəyyən olunub ki, Vüsal Əliyev bu hadisədən bir qədər sonra kamera yoldaşı Mirafiq Bəşirova bu dəfə keçmiş iş yoldaşının bıçaqlanması cinayətini sifariş edib. Bu sifariş əsasında Mirafiq Bəşirov tanışı Namiq Alagözov vasitəsi ilə cari ilin aprelin 22-də həmin şəxsə yaşadığı evin qarajında bıçaqla müxtəlif dərəcəli bədən xəsarətləri yetirilməsini təşkil edib. Namiq Alagözov da həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində şübhəli şəxs qismində tutularaq istintaqa cəlb olunub.

Qeyd edilən faktlarla bağlı Zaur Cəlilli, Bəhruz Əhmədov, Nurlan Bəşirov, Fariz Daşdəmirov, Sərxan Çobanov, İsamuddin Babayev və Namiq Alagözov təqsirləndirilən şəxs qismində cəlb edilərək barələrində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib. Hazırda həbsdə olan Vüsal Əliyevə və Mirafiq Bəşirova da Cinayət Məcəlləsinin müvafiq maddələri ilə ittiham elan olunmuşdur. Cinayət işi üzrə zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

## Virusoloqdan xəbərdarlıq: “Koronavirusla bağlı ikinci dalğa payızda ola bilər”



***Karantin rejimi bitdikdən sonra yaşlı insanlar üçün müəyyən edilən məhdudiyyətlərin bir hissəsi qalmalıdır”. SİA-nın xəbərinə görə, bunu virusoloq Anatoliy Altstein açıqlayıb. O bildirib ki, karantindən sonra yaşlı insanların çölə çıxmaması ilə bağlı ciddi qadağaya ehtiyac yoxdur: “Çünki yaşlı insanların havada olması, gəzməsi mütləqdir. Sadəcə burada əsas məsələ yaşlı insanların digərləri ilə təmasda olmaması, başqaları ilə danışmamasıdır. Əgər təmas olmazsa, çölə çıxmaq özünütəcridi pozmur”.***

Mütəxəssisin fikrincə, karantin rejimi nə qədər yumşalsa da, tibbi maskadan istifadə etməklə bağlı qaydalar yəqin ki, davamlı olacaq. Virusoloq qeyd edib ki, koronavirusla bağlı ikinci dalğa payız fəslində ola bilər: “Əgər o zamana qədər insanların çoxunda immun sistemi güclənərsə, o zaman ikinci dağla, birincidən zəif ola bilər”. Məlumat üçün nəzərinizə çatdıraq ki, yeni növ koronavirus pandemiyası demək olar ki bütün dünyanı əhatə edir. Ümüdünya Səhiyyə Təşkilatının açıqladığı son rəqəmlərə görə, dünyada virusa yoluxanların sayı 3.5 milyonu, ölənlərin sayı isə 240 mini ötüb. Virusdan ölənlərin sayına görə, liderliyi ABŞ edir.

## Mütəxəssis rəyi: “Epidemioloji vəziyyət tələb edərsə, karantin rejimi yenidən sərtləşdiriləcək”



***“Karantin rejiminin yumşaldılmasına baxmayaraq, insanlar pandemiya ilə bağlı gedən proseslərə bayağı baxmamalıdırlar”. Bunu SİA-ya açıqlamasında Baş epidemioloq İbadulla Ağayev deyib. O bildirib ki, karantin rejimi götürüldükdən sonra da, müəyyən müddət ərzində gigiyenik normativlərə, müvafiq qaydalara əməl etməlidirlər.***

İbadulla Ağayevin sözlərinə görə, karantin rejiminin yumşaldığı şəraitdə belə, insanların zəruri sanitar-gigiyenik tədbirlərinə əməl etməsi olduqca vacibdir: “Epidemioloji vəziyyət tələb edərsə, karantin rejimi yenidən sərtləşdiriləcək. Bu, əhalinin özündən asılı olan vacib məsələdir. Epidemioloji durum tam sabit olana qədər hər bir kəs öz sosial məsuliyyətini dərk edərək tələb olunan bütün sanitar-gigiyenik normalara əməl etməlidir”. Baş epidemioloq qeyd edib ki, vacib işi olmayanlar küçəyə çıxmasınlar: “İnsanlar kütləvi yerlərdən uzaq dayanmağa çalışmalıdırlar. Əks halda, bu, xəstəlik hallarının sayının yenidən artması, virusa yoluxmanın ikinci dalğası başlaya bilər”.



İLHAM

## Müxalifətin köməyinə koronavirusda çatmadı

***Bütün dünyaya bəlli olan fakt ondan ibarətdir ki, bəşəri bəlaya çevrilən koronavirus epidemiyasının yayılmasının qarşısının alınması istiqamətində Azərbaycan dövləti beynəlxalq aləmə nümunə ola biləcək müsbət nəticələr əldə etdir. Məhz atılan müdrik addımların, verilən mütərəqqi qərarların nəticəsi olaraq ölkəmizdə koronavirusa yoluxanların və həyatlarını itirənlərin sayı digər ölkələrdən qat-qat aşağıdır.***

Bunun fonunda əhalinin sosial təminatı da dünya ölkələri ilə müqayisədə yüksəkdir. Bütün bunlar dövlətin hər bir vətəndaşının yanında olduğunu göstərir. Həm də, vətəndaşların sosial təminatı və sağlamlığı dövlətimizin başlıca prinsipi olduğu təsdiqlənir. Ümumiyyətlə demək olar ki, aparılan düzgün, məqsədyönlü siyasət nəticəsində pandemiya dövründə belə, ölkə əhasinin sosial-iqtisadi durumu dostları sevindirib, düşmənləri xar edəcək yüksək uğurlara nail olunub. Təəssüfki, bütün sahələdə müsbət dəyişikliklər baş versədə, müxalif düşərgə hələ də, ötən əsrin 90-cı illərinin abi-həvasında və təfəkküründədir. Yəni, dəyişən yalnız saç düzümləri və əyinlərindədki bər-bəzəkli libaslarıdır. Daxili aləmləri və siyasi bilikləri meydan dövrünün düşüncəsində qalmaqdadır. Azərbaycanın uğuruna qısqanclıqla yanaşan dağıdıcı müxalifət əldə olunan nailiyyətlərə kögə salamaq üçün hər cür vasitə və üsüldan istifadə edir, hətta erməni lobbisi ilə əməkdaşlıq etməkdən çəkinməyir. Bu isə onların bütün dəyərləri arxa plana keçirdiklərini göstərir. Həm də, bir daha təsdiq olunur ki, dağıdıcı müxalif ünsürləri milli və dövlətçilik maraqları, demokratiya, insan hüquqları və s. maraqlandırmır.

### Əli Kərimli batır

AXCP, Müsavat kimi müxalif tör-töküntüləri mövcud demokratik mühitdən faydalanaraq xarici ağalarının sifarişlərinə uyğun olaraq ölkəmizdəki, mövcud içtimai-siyasi mühiti pozmağa və qarşıdurmalarla müşayət oluna biləcək hadisələr yaratmağa çalışırlar. ADMP-nin sədri, millət vəkili Elşən Musayev “Səs” qəzetinə açıqlamasında bildirdi ki, “Milli Şura”, Əli Kərimli və onların təəsübkeşləri Azərbaycan xalqının açıq və birmənalı düşmənləridir: “Koronavirus dövründə müşayət edilən hadisələr də bir daha sübut etdi ki, belələrinin əsl layiq olduğu yer siyasət məkanı deyil, tarixin zibilliyidir! O yer ki, illərdir məskunlaşıblar, gömülüb qalıblar. O yer ki, ömürlük ünvanları olacaq. Əli Kərimli ətrafında saxladığı qolçomaqlarla internet üzərindən hücumlar edir, ölkədəki sabit və idarə olunan vəziyyətə kölgə salmağa çalışır, özünün quruluşçu rejissorluğu ilə yeni tamaşa səhnələri qurur, ictimai rəyi üzərinə çəkmək üçün dəridən qabıqdan çıxır, vurnuxur. Fəqət, çıfayda. Effekt yoxdur. Əksinə, maraq daha da azalıb. Bəyin “layk”ları tükənib. Diqqət sıfırdır. Bata bildikcə batır bu adam”. E.Musayev onu da bildirdi ki, Azərbaycan dövləti ayaq üstdədir: “Hökümət tərəfindən atılan bütün addımlar yerindədir və düzgündür. Artıq xəstəliyə yoluxanlarla sağalanların arasındakı fərq ciddi bir şəkildə ikincinin xeyirinə doğru dəyişməyə başlayıb. Ümumbəşəri pandemiya üzərində qələbə qazanacağımız gün çox yaxındadır. Bu isə o dməkdir ki, “Milli Şura” ətrafında cəmlənən radikalların köməyinə koronavirus da çatmadı. Mənfur ünsürlər yenə öz xislətlərinin badına getdilər. Qazdıqları quyuya düşdülər. Arzuları bətndəcə dəfn olundu”.

### Müxalifəti iflas gözləyir

Dağıdıcı müxalifəti xalq, millət deyil, öz şəxsi maraqları düşündürür. Həmin maraqlar da kənardan pul, qrant vasitəsilə təmin olunanda proses başlayır. Bu baxımdan demək olar ki, bu gün ki, dağıdıcı müxalifət heç də müstəqil deyil. Yəni partiya sədrlərinin əlləri hansısa xarici qüvvələrin ciblərindədir. Atdıqları addımlar, verdikləri qərarlar “əl əli yuyar, əldə dönüb üzü yuyar” prinsipinə əsaslanır. Xaricdən maddi mənəvi dəstək göstərilməsi müqabilində dağıdıcı ünsürlər ölkədə məkrli, pozucu planlar həyata keçirməyə cəhdlər göstərirlər. Düzdür, bu kimi cəhdlər uğursuzluqla nəticələnir. Çünki, pozucu qüvvələr üçün Azərbaycanda geniş imkan yoxdur. Digər tərəfdən xalq onları qətiyyətlə rədd edir. Bir sözlə dağıdıcı müxalifətin pozuculuğa və təxribatlara hesablanan siyasəti bir daha onu deməyə əsas verir ki, onlar xalqa və dövlətə düşmən kəsiblər. Yəni, öz məkrli palanlarını və eləcə də, xarici qüvvələrin pozuculuğa yönələn sifarişlərini yerinə yetirmək üçün şeytanla belə əməkdaşlıq münasibətləri qurmaqdan çəkinməzlər. Müstəqil düşünmək və addımlar atmaq imkanına malik olmayan müxalifət partiyaları və onların liderləri təbii olaraq məhvə məhkum olmalıdırlar. Başqa cür də, ola bilməz. Çünki, məsəl var deyərlər, “özgə işığına arxayın olanlar, gecə şamsız qalar”. AXCP, Müsavat kimi xalqdan ayrı düşən partiya liderləri ümidlərini daha çox xarici maraqlı dairələrə bağlayıb, Azərbaycan xalqına düşmən kəsildiklərindən onları sonu görünməyən zülmət qaranlıq gözləyir.

# Cinayətkarın mitinq həyasızlığı...

## *Yaxud tərcümeyi-halı qara ləkəli Əli Kərimli*

***Bir adam anadan olduğu gündən ancaq pis niyyətdə olursa, o, ömrünün sonunna kimi öz xislətini gizlədə bilməyəcək. AXCP sədri Əli Kərimlinin Saatlıda məskunlaşan yaxın qohumları bu fikri dönə-dönə vurğulayırlar ki, olduğu gündən satqın olub, ətrafında olan uşaqları böhtanlayıb və bu gün də eyni yolu gedir.***

Göründüyü kimi, bir "siyasətçi"nin (siyasətçi yox, riyakar, satqın) tərcümeyi-halında bu qədər qara ləkələr olsun və dünyanı ağuşuna alan koronavirus kimi bir epidemiyaya qarşı mübarizədə dövlət başçısının apardığı siyasətə bütün dünya dövlətlərinin həsəd apardığı bir zamanda "ev dustağı" adı ilə sosial şəbəkələrdə böhtanlı çıxışlarla xalqı mitinqlərə səsləməsi, ancaq həyasızlıq və iblis xislətdi olmasından doğur. Bir də, bu "şeytanla da iş birliyi quran" cinayətkar Əli Kərimlinin xəmiri belə yoğrulub. Necə deyirlər- qozbeli qəbir düzəldər. Görünür hələ də qəbir də Əli Kərimlini düzəldə bilməyəcək. Və belə pandemiyaya qarşı mübarizənin aparıldığı bir məqamda, görünür əlinə fürsət düşdüyünü planlaşdıran AXCP sədri özünün "birləşmiş müxalifətin lideri" və yaxud da "ana müxalifət" olduğuna çatmaq üçün bu virus götürülənə kimi ölkədə qarışıqlıq yaratmaq istəyir. Ancaq dar dayazlı, kif atmış təfəkkürlü satqın və cinayətkardan bundan savayı nə gözləmək olar? Həqiqətən də, bu o Ə.Kərimlidir ki, siyasi karyerası boyunca təmsil olunduğu düşərgədə daim dağıdıcılıq fəaliyyəti ilə tanınıb. Bütün ittifaqları dağıtmağa çalışıb. Faktlar, sübutlar...

### Ə.Kərimlinin son 20-25 ildə dağıdıcı məqamları...

1995-ci ilin payızında Azərbaycanda Milli Məclisə keçiriləcək seçkilər. Bu o vaxtlar idi ki, mərhum Əbülfəz Elçibəy təşkilatına - AXC(P)-ə Kələkidən tam nəzarət edə bilmirdi. Bundan istifadə edən Ə.Kərimlinin "Yurd"laşdırılmış nəzarəti "at oynadırdı". Bundan sonra da Əli Kərimli müxalifət düşərgəsində birlik təşəbbüslərinə sarsıdıcı zərbələr vurdu. 2000-ci ilin parlament seçkilərində ortaya qoyduğu mövqe yəqin çoxlarının yaddaşından hələ də silinməyib. Yenə də Müsavatla AXCP-nin seçkiyə "vahid siyahı" ilə getmələri təşəbbüsü Ə.Kərimli tərəfindən "vuruldu". Seçkidən sonra isə müxalifətin tutduğu vahid mövqeyə qarşı çıxmaqla Əli Kərimli növbəti missiyasını yerinə yetirmiş oldu. Və bu gün Əli Kərimli kimlərəsə boşuna qucaq açmır. Elə məşhur bir aforizmdə deyildiyi kimi, onları sevdiyi üçün qucaqlamır, sevmədiyi üçün qucaqlayır. Ki, bağrına basıb, elə möhkəm sıxsın ki, boğulsunlar...

Bax, bu reallıqdır ki, Əli Kərimlinin yanında olmaq, ona inanmaq, güvənmək minalanmış ərazi ilə yol getmək qədər riskli və təhlükəlidi. Və Ə.Kərimli bir reallığı anlamalıdır ki, növbəti dəfə özünü "müxalifətin vahid lideri" olaraq təqdim edib və bu vasitə ilə onun aldadıcı çağırışlarına inanan müxalifət partiya sədrlərini özündən "asılı" vəziyyətdə olduğunu nümayiş etdirməyə cəhd göstərsə də artıq müxalifət bu cinayətkarın hansı xislətdə olduğunu bilir. Və elə buna görə də, artıq növbəti




mitinq keçirəcəklərini də bəyan edən Ə.Kərimlinin bu çağırışlarına müsbət deyil, mənfi rəylər verilməyə başlanılıb. Və Əli Kərimli kimilər bilməlidirlər ki, Vətənin halal çörəyinə kəm baxıb, özgənin yalı ilə bəslənənləri tarix heç vaxt bağışlanmır.

### Eynulla Fətullayev: "Əli Kərimli müxalifət düşərgəsinin xəyanətkar tülküsüdür"

Vaxtında deyib bu sözü jurnalist Eynulla Fətullayev: "Əli Kərimli müxalifət düşərgəsinin tülküsüdür. Bütün tülkü və xəyanətkar siyasəti ilə". Bəli, bu gün bu tülkü siyasətçi, cinayətkar Ə.Kərimli ilə bağlı xarici qüvvələrin göndərdiyi maliyyə ilə ölkədə təxribatlar törətmək istəyi faktları sübuta yetirildiyi bir halda utanmadan mitinq ıdiasına düşməsi bir daha AXCP sədrinin erməniliyini və tülkülüyünü təsdiqləyir. Və bu cinayətkar, əxlaqsız erməni nökəri Ə.Kərimli elə zənn edir ki, bəlkə hamının başı virusa qatıldığı bir zamanda "istəyinə" çatacaq? Bu mümkün olmayacaq. Çünki xalq Əli Kərimli kimi satqınların etdiyi cinayətlərə görə cəzalandırılmasını tələb edir. olmayacaq. Çünki xalq, xüsusilə gənc nəsil ölkəmizdə demokratik proseslərin inkişafını yüksək dəyərləndirir və bu şəraiti yaradan, Azərbaycanın beynəlxalq aləmdəki mövqelərini getdikcə möhkəmləndirən dövlət başçısının siyasi xəttini dəstəklədiklərini bəyan edirlər. Milli maraqlardan millilikdən uzaq olan xəyanətkar qüvvələrin çağırışlarına isə məhəl qoyan yoxdur.

### Sonsuz saxtakarın yeri....

Bəli, Ə.Kərimli saxtakarlığı sonsuzdur. Baxın: Moskvadan hər ay "Milli Şura" və AXCP adlı qurumlara nə az, nə çox - 412 min dollar vəsait daxil olub. Milli Demokratiya İnstitutu tərəfindən ayrılmış 140 min dollar, Avropa İttifaqı Nümayəndəliyi Demokratiya və İnsan Hüquqları üzrə Avropa Aləti (DİHAA) və Qeyri-Dövlət İştirakçıları (QDİ) proqramları çərçivəsində 9 milyon manata yaxın vəsait, Avropa Komissiyasının xəttilə ayrılan 2.7 milyon avro, ABŞ-ın Azərbaycandakı səfirliyindən 15322 dollar, Dünya Bankından 10500 dollar, "Revenue Watch Institute" (ABŞ) 30000 dollar, "Asiya İnkişaf Bankı" üzrə QHT Forumundan 4720 dollar, ABŞ-ın Demokratiyaya Milli Dəstək Fondundan (NED) 40250 dollar, Böyük Britaniyanın Azərbaycandakı səfirliyindən 5000 funt sterlinq, Açıq Cəmiyyət İnstitutu - Yardım Fondundan 19615 dollar, yenə də NED-dən 42796 dollar, ABŞ-ın "Kounterpart İnterneşnl" Beynəlxalq Humanitar Təşkilatının Azərbaycandakı nümayəndəliyindən 29448 manat, ümumilikdə isə, iki ildə 210.000 dollar, ABŞ-ın Marşal Fondundan (GMF) 21800 dollar, Avropa Birliyindən 120.374 avro, 250 min avro isə əldə olaraq. Bu vəsaitin 60 %-i, yəni 500 min dollara yaxını birbaşa Əli Kərimlinin şəxsi büdcəsinə daxil olub. Məhz bu faktlardan sonra Ə.Kərimli görəsən hansı "üzlə" mitinq çağırışı edir? Yeri gəlmişkən, biz bu sıralamaya Ə.Kərimlinin mühacir biznesindən və digər qaranlıq sahələrdən əldə etdiyi gəlirləri də əlavə edəriksə, daha çox milyonluq rəqəmlərin şahidlərinə çevrilmiş olarıq.

Bu həqiqətən də belədir. Vətən xainlərinin torpağına, elinə, obasına ermənidən betər qənim kəsilən namərdlər heç vaxt kişi sayılmayıb. Ancaq xalqın nifrətinə məruz qalıblar. Bax, bu marginallar unudurlar ki, antiazərbaycan dairələrin qrant paylayan üfunətli ofislərinin mərmər döşəmələri üstündə gəzib özgə yalı ilə yallanmaqla heç nəyə nail olmaq deyil. Və Əli kərimlililər bilməlidirlər ki, Vətənin halal çörəyinə kəm baxıb, özgənin (həm də düşmənin) yalı ilə bəslənənləri isə tarix heç vaxt bağışlamır. Bunu Əli Kərimli kimi parazitlər anlamağa məcburdurlar.

***Rəfiqə HÜSEYNOVA***

---

**TƏRS BAXIŞ**

# Əli Kərimlinin bitmir-tükənməyən "mahnıları"

## *AXCP sədrinin internet davası, yoxsa hay-küyçülüyün son həddi?*

***"Getmək istəyirsən, bəhanəsiz get" deyilən bir ifadə var. Bu ifadə demək olar ki, bütün mənalarda AXCP sədri Əli Kərimliyə aiddir. Əgər bu gün "Ə.Kərimli deyərkən, düşüncələrdə hansı assosiasiyalar yaranır?" sualını verərsək, ağıla gələn ilk şey məhz yersiz narazılıq, hər şeyə etiraz və siyasi həyasızlıq faktoru önə çıxır. Əslində bu, cəbhəçilərin sədrlərinin real portret cizgilərinin bir hissəsidir.***

### Halbuki, sosial şəbəkədə "admin heyəti" adı altında fikirlərini çatdırırdı




Beləliklə, Ə.Kərimli uzun müddət idi ki, guya internat bağlantısında ona qarşı "təxribatın" həyata keçirildiyini iddia edir, bunu "səsinin boğulması" olaraq ictimai rəyə sırımağa çalışırdı. Halbuki, sosial şəbəkədə "admin heyəti" adı altında fikirlərini çatdırırdı. Belə olan halda sual yarandı ki, əgər onun internat bağlantısı kəsilibsə, o necə hadisələrdən xəbərdar olur, fikirlər bildirir, şərhlər yazır, ümumiyyətlə trollarını idarə etməkdə davam edir? Bu sualın cavabı nə Ə.Kərimli, nə də yan-yörəsindəkilər tərəfindən verilmədi. Üstəlik, bununla yanaşı, hakimiyyətə qarşı hay-küy metodu, "mahnaları" da davam etdirildi. Lakin...

### İctimai reaksiya yoxdur, ümumiyyətlə heç olmadı da...

Lakin bu günlərdə məlum oldu ki, AXCP sədrinin "interneti bərpa oldu", yəni Ə.Kərimli gördü ki, onun bir müddət saldığı haray-həşirləri istədiyi nəticəni vermir və ona görə də, başlayıb bu ətrafda uğursuz fikirlərini yönəltməyə. Görünür, indi də bu istiqamətdə özünü ülgücləyən cəbhəçilərin sədri yenidən ictimai reaksiyanın verilməsini izləmək istəyindədir. Amma ictimai reaksiya yoxdur, ümumiyyətlə heç olmadı da...

Kifayət qədər gülünc təsir bağışlayan iddiasında o deyir ki, "telefonunda internet bərpa olunub" və guya bilmir ki, bu "müvəqqəti gözə kül üfürməkdir, yoxsa internet blokadasının qismən ləğvi..." (?!-R.R.) Maraqlıdır, görəsən Kərimli belə gülünc iddia və ittihamları ilə həqiqətənmi hər hansı siyasi üstünlük əldə edəcəyini düşünür? Əgər bu həqiqətən də belədirsə onda o doğrudan da siyasi sərsəmin təkidir və ümumiyyətlə, səbatsızlığını növbəti dəfə ortaya qoyub.

### Milçək iyrənc deyil, könül bulandırır və ya dəyirman öz işindədir, çax-çaxı baş ağrıdır...

Məsələn, telefonunda internetin olduğunu deyir, ancaq kompüterini internetə qoşa bilmədiyini bildirir. Halbuki, burada texniki nasazlığın mövcudluğu göz önündədir. Yəni o kompüterini yoxlamalı, ya da ustaya verməlidir ki, internetə nəyə görə bağlana bilmir, bu qədər bəsit! Hətta Ə.Kərimli o qədər bəhanəçidir ki, internetin qəsdən kompüterlə telefonu arasında fərq qoyduğunu, internetin günahkar olduğunu da iddia edə bilər! Ona nə var ki, üzədurанlıq, siyasi həyasızlıq kimi şakərlə malik birinin bu ittihamı da irəli sürməsindən təəccüblənməyə dəyməz.

Bir sözlə, fakt budur ki, Ə.Kərimli yavaş-yavaş siyasi arenadan rədd olub gedəcəyi günün yaxınlaşdığını hiss edir. Amma getməsi ərəfəsində bax bu cür sərsəm bəhanələri ilə ictimai rəyin zəhləsini aparır. Atalarımız demişkən, milçək iyrənc deyil, könül bulandırır və ya dəyirman öz işindədir, çax-çaxı baş ağrıdır...

***Rövşən RƏSULOV***


## "Bakcell"dən 20 GB + gecədən səhərə LİMİTSİZ İnternet!

***Bakcell öz abunəçilərinin böyük həcmdə internet trafikinə artan tələbatını ödəmək məqsədilə yeni internet paketini istifadəyə verib. Yeni "20 GB + gecədən səhərə Limitsiz İnternet" paketini cəmi 25 manata əldə edən Bakcell abunəçiləri 20 GB trafiklə yanaşı, gecə saat 01:00-dan səhər 10:00-dək tamamilə LİMİTSİZ internetdən yararlanacaqlar. Bundan əlavə, paketin aktivləşdirildiyi gündən başlayaraq 30 gün ərzində paketin əsas trafik həcmi (20 GB) bitsə belə, internet istifadəsi gecə və səhərlər limitsiz qalacaq.***




"20 GB + gecədən səhərə Limitsiz İnternet" paketini *444*20# YES kodu vasitəsilə, eyni zamanda mobil nömrənin balansına və trafik qalığına daha rahat şəkildə nəzarət imkanı verən "Mənim Bakcellim" tətbiqetməsinin müvafiq bölməsinə daxil olaraq aktivləşdirmək mümkündür.

Bu unikal fürsət barədə daha ətraflı məlumatı "Mənim Bakcellim" tətbiqetməsində və ya https://www.bakcell.com/az/unlimited-nights-morning-internet-bundle səhifəsində əldə etmək olar.

Bakcell şirkəti məhsul və xidmətlərinin keyfiyyətini müntəzəm qaydada artırmaqla abunəçilərinə daha yaxşı müştəri təcrübəsi təqdim edəcək. Bunun üçün Azərbaycanın ən sürətli mobil şəbəkəsinin bütün texniki imkanları mövcuddur.

# GAP və REAL AXCP və Müsavata hansı ittihamları irəli sürür?

*İttihamlar tükənmir, konstruktivlər radikallara meydan oxuyurlar*

***İqtidarın siyasi islahatlar çərçivəsində müxalifyönlü partiyalara da yeni baxış sistemində münasibət sərgiləməsi köhnə təfəkkürdə və radikalçılıqda israrlı olan digər partiyaları ciddi şəkildə narahat etməyə başlayıb. Ölkədə yaranmış dialoq mühitini yüksək dəyərləndirən müxalifət partiyalarının əksəriyyəti bu amilin davamlı xarakter alacağına ümid etdiklərini bildirməklə yanaşı, onları "xəyanətkar", "satqın" adlandıran radikalların da cavablarını verməkdədirlər. Əslində, dağıdıcılıq prizmasında dayanan tərəflərin dövlətə, xalqa və dövlətçilik maraqlarına xəyanət etdiklərini deyən müxalifyönlü siyasi təşkilatların rəhbərləri sərt ittihamlarını bu gün də davam etməkdədirlər.***

Əsasən, REAL partiyasının rəhbəri İlqar Məmmədovun, Rəsul Cəfərovun Ali Məhkəmənin hökmü ilə bəraət almalarına, Oqtay Gülalıyevin Heydər Əliyev Fondunun dəstəyi ilə Türkiyədə davam edən müalicəsinə, Elçibəyin həyat yoldaşı Həlimə xanımın vəfatının ardınca onun Naxçıvanda dəfni və Bakıda keçirilmiş yas mərasimlərinin dövlət tərəfindən qarşılanmasına, Naxçıvandakı yas mərasimində iştirak etmək istəyənlərə pulsuz şəkildə iki təyyarənin ayrılmasına, Azadlıq partiyasının sədri Əhməd Orucun müalicəsinin qarşılanmasına və digər məsələlərə toxunan müxalifətçilər bütün bunların qarşılığında AXCP və Müsavat partiya rəhbərlərinin iddialarını sərsəmlik, qeyri-konstruktivlik və mənfi tendensiya adandırırlar.

**Ağasif Şakiroğlu: "Həyat bioqrafiyası başdan ayağa ləkədən ibarət olan birilərinin nə deməsinin və nə danışmasının heç bir əhəmiyyəti yoxdur!"**

Misal üçün, Gələcək Azərbaycan Partiyasının (GAP) sədri Ağasif Şakiroğlu deyib ki, bu kimi addımlara "ağız büzən" və ilk fürsətdə ölkədə dialoq mühiti fonunda formalaşmaqda olan sivil iqtidar-müxalifət münasibətlərini dəyərləndirə bilməyən (və ya dəyərləndirmək istəməyən) marginal qruplar görülən müsbət işlərə, atılan müsbət addımlara qarayaxma cəhdlərində bulunurlar: "Bu cığal siyasətbazlar indi də İlqar Məmmədovu və dövlətin atdığı müsbət addımları ləkələmək yolu tutublar. Amma anlamırlar ki, həyat bioqrafiyası başdan ayağa ləkədən ibarət olan birilərinin nə deməsinin və nə danışmasının heç bir əhəmiyyəti yoxdur!"

**GAP sədri: "Bu cür müsbət işlərə "mız" qoymağa çalışan avantürist, marginal qruplar..."**

GAP sədri həmçinin bildirib ki, bu marginal və qaragüruh qrupların dövlət və sivil münasibətlər əleyhinə fəaliyyəti, böhtanları bir daha onların hakimiyyətlə deyil, dövlətçiliklə müxalifətçilik etmək sevdalarından irəli gəldiyini ortaya qoymuş oldu. "Axı dövlət və dövlətçiliklə düşmən mövqedə necə dayanmaq olar? Məgər bu dövlət bizlərin hamımızın deyil?!", deyə sual edən Şakiroğlu AXCP və Müsavatı avantüraçı adlandırıb: "Bu cür müsbət işlərə "mız" qoymağa çalışan avantürist, marginal qruplar Həlimə xanım rəhmətə gedəndə, Oqtay Güləliyev qəza keçirəndə, Əhməd Oruc xəstəliyi ilə ortalıqda qalanda harada idilər?! Elçibəyin ailə üzvünün, lap dəqiq desəm, həyat yoldaşının cənazəsi ortada qalsaydı, Oqtay Gülaliyev və Əhməd Oruc müalicə edilməməsi səbəbindən dünyadan köçsəydi Əli Kərimli, Cəmil Həsənli, Gültəkin Hacıbəyli kimi "siyasi xadimlərin" üreyincəmi olacaqdı hər şey?! Bir az böyük düşünmək lazımdır. Onu da anlayıram ki, böyük düşünmək böyük insanlara xas olan keyfiyyətdir. Bu böyüklük də, təəssüf ki, sizdə yoxdur..."

**Natiq Cəfərli: ""AXCP - Əli bəyə və onun sözündən çıxmayan tərəfdarlarına tövsiyəm odur ki..."**

REAL partiyasının icraçı katibi Natiq Cəfərli də eyni mövqeni sərgiləməklə yanaşı, AXCP və Müsavata tövsiyələr verməyi də unutmayıb. "AXCP - Əli bəyə və onun sözündən çıxmayan tərəfdarlarına tövsiyəm odur ki, başqalarına qarayaxmadan, çamur atmadan, "əsl müxaliflik" testi uydurmadan öz yolları ilə getsinlər", deyə qeyd edən N.Cəfərli ironic şəkildə əlavə edib ki, əgər tutduqları yola inanırlarsa, onlara ancaq uğur diləyə bilər: "Təki uğurlu olsunlar - amma başqa cür düşünənlərə, davrananlara damğa vurmaq kimi antidemokratik davranışdan əl çəksinlər. Kiçicik tövsiyəm də odur ki, AXCP öz ritorikasına görə "soldur", amma nədənsə israrla özünü "sağ" kimi təqdim edir - ölkədə güclü sol partiyaya ehtiyac var, 20 illik eyni ritorikanı kənara qoyub sözün siyasi mənasında "sola" dönsünlər, məncə, uğurlu alınacaq, bizim üçün də siyasi müstəvidə, ideoloji çərçivədə rəqabətli mühit olacaq".

**REAL partiyasının rəsmisindən Müsavata: "AXCP-yə baxıb addımlar atmasınlar"**

Müsavat haqqında da eyni fikirləri bildirən Cəfərli müsavatçıların AXCP-nin yolu ilə getdiyini bildirib və bunun həmin partiyaya baş ucalığı gətirməyəcəyini deyib. "...Çalışsınlar ki, artıq özləri olsunlar, daim AXCP-yə baxıb addımlar atmasınlar, onları "müxalifət etalonu" sayıb, məhz o cinahdan gələ biləcək tənqidlərdən çəkinərək özləri olmaqdan vaz keçməsinlər. İmkan vermək olmaz ki, kimsə bu məmləkətdə "müxalifət naziri" olub, kimin əsl müxalif olub-olmamağına qərar versin - bu həm absurd, həm də anti-demokratik dir yanaşmadır..."

Göründüyü kimi, hər şey göz önündədir və fakt budur ki, normal siyasi çərçivədə hadisələrə doğru qiymət verməyi bacaran müxalifət partiyaları dövlətçilik ənənələrini hər şeydən üstün tutmaqla yanaşı, həm də əslində radikalçılıq, dağıdıcılıq, qaragüruhçuluq və sözün əsl mənasında qara-qışqırıq salan partiyalara meydan oxumağa başlayıblar. İstər sosial şəbəkələrdə, istərsə də mətbuatda son vaxtlar onlar tərəfindən səsləndirilən ittihamlar da məhz bu cür qənaətə gəlməyə zəmin yaradır...

***Rövşən RƏSULOV***

# Milli demokratlıq, yoxsa "milli" satqınlıq?

*Satıb-satılan əxlaqsızların mənəviyyatı olmaz*



Bəli, dərk edə-edə, anlaya-anlaya ölkəmizin düşmənləri ilə bir dam altında oturub, dövlətçilik maraqlarımızı satmaq. Ömər Xəyyama görə, "İnsanın ruhu və əxlaqı nə qədər alçaq olarsa, burnunu bir o qədər dik tutar". Səbəb? Aydındır.

Satqın zehniyyəti nədən qaynaqlanır? Əlbəttə, maliyyə-pul arqumenti. Satqın yalnız məntiqləmi düşünür? - suallarına mütləq olmasa da, elmi cavablar var. Alınan nəticələr göstərir ki, sən demə, işin kökü yalnız acgözlük və pul deyil. Kimsə doğrudan da varlanmaq üçün, xəyanətinə əvəz olaraq pula satılır. Məhz buna görə - xəyanətin qiyməti yüksəkdir. Satqın üçün hər şey - satlıq maldır. Srr deyil ki, bu gün ölkəmizin günü-gündən artan inkişafını görməyən, şəxsi maraqlarına görə milli dəyərimizi gözdən salan sapı özümüzdən olan satılıb-satılan baltalar "siyasi mühacir" adı altında çörəyini yeyib, suyunu içdikləri vətənlərinə qarşı anti-təbliğat kampaniyası aparmaqla erməni lobbisi tərəfindən lazımi maliyyə alırlar. Erməni lobbisinin maliyyələşdirdiyi bu əxlaqsız və satqınlar - Emin Milli, Orduxan Teymurxan, Tural Sadıqlı, Məhəmməd Mirzəli, Rafael Piriyev, Həbib Müntəzir və digər bu kimi parazitlər həyasızcasına çirkin əməllərindən əl çəkmirlər.

Deyir xəyanətkarın ağı-qarası olmur. Həm də o da deyilir ki, haqq nazilər, ammma üzülməz. Gec-tez haqqı tapdalayanların aqibəti ermənilərə qahmar çıxan Orduxan Teymurxan kimi olacaq. Və etdiyi cinayət əməllərinə görə də cəzasını çəkməlidir. Avropada "siyasi mühacir" adı altında dövlətçilik və milli maraqlarımıza qarşı fəaliyyət göstərən bloger cəzasını alacaqlar.

Və bu gün bu kimi siyasət rüşeyimlər hələ də sosial şəbəkələrdə Azərbaycana qarşı "savaş" açmaq tapşırığını yerinə yetirməklə erməni sevgilərini nümayiş etdirməkdədirlər. Ancaq bu parazitlər anlamırlar ki, "sirkə nə qədər tünd olsa öz qabını çatladacaq". Çünki Avropa ölkələrinə sığınan və son vaxtlaradək trivial videoblogerliklə, bir də məzmunsuz və proqramsız müxalifətçiliklə məşğul olan sizin kimi əxlaqsızlar bu gün "virtual inqilabçı"lar, "siyasi mühacirlər" olublar.

Kif atmış təfəkkürlü "siyasi mühacirlər" yenə də "Azərbaycanda hakimiyyəti devirəcəyik" deyirlər, "bütün dünyada aksiyalara başlayacağıq" söyləyirlər. Əxlaqsızlıq, tərbiyəsizlik.simvolu olan Rəfael Piriyev kimilər "siyasi fəaliyyətlərini" söyüş və təhqirli ifadələr etməkdə görürlər. Çünki idarə olunan bu əxlaqsız və tərbiyəsizlər özgə yalağı ilə dolanardır. Ancaq gülməli görünən odur ki, özgə yalağı ilə dolananlar bir-birilərinə "qrant alverçisi" deyir. Belə ki, Çexiyanın paytaxtı Praqada yaşayan Zamiq Məmmədli "Facebook" səhifəsində son vaxtlar Orduxan Bəbirov, Məhəmməd Mirzəlinin qrant "alverçisi" adlandırır. Gülməli irad.. Kor-kora kor deməsə, bağrı çatlar. Onun ardınca Z.Məmmədli yazır ki, "Bu "diktatoru tanıdaq" kimi axmaq aksiyanın layihə müəllifi Leyla Yunusdur. Bu aydın məsələdir. Bu yaxınlarda Leyla Yunus "siyasi məhbuslara yardım" layihəsi üzrə NED-dən (National Endowment for Democracy) 94000 avro qrant alıb, bir soruşun, hansısa siyasi məhbus ailəsinə ordan 10 avro veribmi?!. Çalışın, bu fitvaya getməyin, siz ortalığa düşürsünüz, bu dəllallar pul qazanırlar! Bu aksiyaya qoşulanlardan isə soruşuram: Leyla Yunusdan 94 min avronun hesabını soruşmağa cəsarətiniz çatırmı? Amma 5000 km uzaqdan camaata "tırka" verməyi gözəl bacarırsınız...".

Görün qrant bu satqın və əxlaqsızları necə üz-üzə qoyub. Artıq heç kimə sirr deyil ki, "siyasi mühacir" adı altında olan ünsürlər ermənilərlə əməkdaşlıq etməklə, erməni lobbisinin göstərişlərinə uyğun idarə olunurlar və sözsüz ki, Vətən, millət, dövlət, xalq anlayışı belə şəxslərə yaddır. Bir də bu təəccüb deyil. Çünki xəyanətkarın ağı-qarası olmur.

***R.HÜSEYNOVA***

# Təhmasib Novruzov: "Cəmil Həsənlinin siyasi riyakarlığı təsdiqini tapır"

Şou qurmağa, məzhəkə yaratmağa adət edən AXCP sədri Əli Kərimli bu dəfə iddia edir ki, guya onun interneti kəsilib, telefonla danışıqlarına müəyyən məhdudiyyətlər qoyulub. "Milli Şura"nın sədri Cəmil Həsənli də özünün təbliğatını qurmaq üçün şər və böhtan kampaniyasınından istifadə edir. Söz yox ki, bu cür pozucu metodlardan istifadə etməklə, Ə.Kərimli və C.Həsənli ənənəvi ağalarının diqqətini növbəti şouları ilə cəlb etməyə çalışırlar.

"Azadlıq Hərəkatçıları" Birliyinin sədri Təhmasib Novruzov "Səs" qəzetinə açıqlamasında bildirdi ki, xalq arasında gözəl bir deyim var. Aşığın sözü qurtaranda aman-aman deyər: "İstər Əli Kərimli olsun, istər Cəmil Həsənli, sözləri qurtaran aşıqlara bənzəyirlər. Dünyanın harasında nə qədər şər, böhtan, qeyri-etik mübarizə metodları varsa onların hamısından gen-bol istifadə ediblər. Həm də demokratiyanın, söz azadlığının olmadığını bağıran bu siyasət dəllallarına bütün qeyri-etik davranışlarına, söyüş, təhqir dolu ifadələrinə görə gözlərinin üstündə qaşlarının olduğunu xatırladan belə olmadı. İndi nə danışsınlar? Hakimiyyəti indi nədə suçlasınlar? Sivil ölkələrdə onların leksikonlarındakı ifadələrə görə məsuliyyət yaranır, qanun qarşısında cavab verməli olurlar. Bizim iqtidar bunlara qarşı onu da tətbiq eləmədi. Hətta bu günlərdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbayca Respublikasının yeni Baş Prokuroru təyin edilmiş Kamran Əliyevi onlayn qəbul edərkən "Heç bir vətəndaş siyasi əqidəsinə görə təqib edilməməlidir" deməsi, bunların başına səpələnən qaynar su oldu. Dünyaya siyasi məhbuslar olduğundan danışan adamların bütün dezinformasiyalarına ölkə başçısı bir cümlə ilə siyasi iradə nümayiş etdirərək nöqtə qoydu".



T.Novruzovun sözlərinə görə, ölkədə gedən saflaşma, sağlam idarəetmə tədbirləri, əhalinin sosial durumunun yaxşılaşdırılmasına yönəlik ardıcıl islahat paketləri xalqın Prezident ətrafında daha sıx birləşməsinə stimul verdi: "Belə bir durumda bu siyasət dəllalları nədən danışsınlar axı? Dünyanı bürüyən koronovirus bəlasına qarşı ölkəmizin dünyada nümunəvi metodlar tətbiq etməsi, hər bir vətəndaşın sosial durumunu nəzarətdə saxlaması, az müddətdə bu pandemiya ilə mübarizənin effektivliyini artırmaq üçün həyata keçirilən tibbi və texniki tədbirlər, bütün bunların qüsursuz yerinə yetirilməsi Azərbaycan haqqında hansısa formada dezinformasiyalar yaymağa da imkanları məhdudlaşdırdı. Belə olan təqdirdə deməyə, danışmağa sözləri olmayanların bundan daha effektli çıxış yolu tapa bilməmələri təbiidir. Bu yolla xaricdəki ağalarına mesaj verirlər ki, guya deməyə çox söz var, sadəcə imkan vermirlər, bütün danışmaq imkanlarımızın qarşısını alıblar. Qarşıdakı aylarda, illərdə onlardan daha yeni formalarda "mübarizə metodları" gözləməyinə dəyər. Çünki, həqiqətən ölkə başçısı elə ciddi inqilabi dəyişikliklərə start verib ki, özünü siyasətçi adlandıran hər adam bu sürətin qarşısında dözüm gətirmək iqtidarında ola bilməz, ola da bilməyəcək!"

***Gülyana***

# Azərbaycanın ərazi bütövlüyünü qorumaq hüququ

***Tarixən Azərbaycan torpaqlarına göz dikən ermənilər Cənubi Qafqazda, o cümlədən Azərbaycanda yaşamamış, bu ərazilərə sonradan və tədricən başqa ölkələrdən köçürülmüşlər. Dağlıq Qarabağda kompakt şəkildə yaşayan ermənilər dəfələrlə Ermənistana birləşmək barədə məsələ qaldırmış, hələ ötən əsrin 40-cı illərindən erməni lobbisinin başçısı A.Mikoyanın təşəbbüsü ilə Ermənistanda gizli "Qarabağ komitəsi" yaradılmışdı. A.Mikoyanın və M.Suslovun təşəbbüsü ilə növbəti dəfə XX əsrin 50-ci illərindəDağlıq Qarabağın Ermənistana verilməsi məsələsi qaldırıldı, Ermənistanda antiazərbaycanlı təbliğatı yenidən qızışdırıldı.Lakin ölkədə 30-dan çox milli münaqişə ocağının olduğunu nəzərə alan sovet rəhbərliyi bu məsələnin arzuolunmaz nəticələr verə biləcəyini başa düşərək problemi Azərbaycanın xeyrinə həll etdi. XX əsrin 60-cı illərinin ortalarında Ermənistan SSR-də növbəti dəfə antiazərbaycanlı hərəkat vüsət aldı.***

Beləliklə, azərbaycanlıların daha da sıxışdırılmasına, Dağlıq Qarabağ Muxtar Vilayətində (DQMV) erməni millətçiliyinin açıq şəkildə kök salmasına təkan verildi.

Ermənilər 1977-ci ildə SSRİ Konstitusiyası və 1978-ci ildə Azərbaycan SSR Konstitusiyası qəbul edilərkən də Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi ilə bağlı iddialar qaldırmışdı. Lakin Ulu öndər Heydər Əliyev ermənilərin bütün məkrli planlarının qarşısını almışdı. 1987-ci ilin sonlarından Yerevanda Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi tələbləri ilə kütləvi aksiyalar həyata keçirildi.Həmin ərəfədə artıq DQMV ərazisində separatçı "Krunk" təşkilatı yaradılmışdı və onun üzvləri 1988-ci ilin yanvar ayında yardım almaq üçün Moskvaya getmişdilər. Beləliklə, separatçılıq dalğasının başlanması üçün ideoloji-təbliğat işi böyük 5 vüsət alırdı. Ulu öndərin ittifaq rəhbərliyindən uzaqlaşdırılması problemin həllində Moskvanın birbaşa ermənipərəst mövqe tutacağını şərtləndirmişdi.Fevral ayından Xankəndidə Ermənistandan xalq deputatları qismində vilayətə gələn emissarların təşkilatçılığı ilə mitinqlər başladı. 1988-ci ilin fevral ayından Ermənistanın Azərbaycan Respublikası ərazisinə qarşı təcavüzünə, azərbaycanlı əhalinin öz torpaqlarından deportasiyasına, Azərbaycan torpaqlarının erməni silahlı qüvvələri tərəfindən işğalınabaşlanmışdır.

1989-cu ilin yanvarında SSRİ Ali Sovetinin Rəyasət Heyəti "Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətində xüsusi idarə formasının tətbiq edilməsi haqqında" fərman verdi. Fərmana əsasən Dağlıq Qarabağ Azərbaycanın tərkibində muxtar vilayət statusu saxlanılmaqla, Moskvaya tabe olanxüsusi idarə forması yaradıldı. A.Volskinin rəhbərlik etdiyi Xüsusi İdarə Komitəsi vilayətin Azərbaycanın yurisdiksiyasından çıxarılması üçün bütün vasitələrdən istifadə etdi.

1991-ci ilə qədər Dağlıq Qarabağda və eləcə də Ermənistanla həmsərhəd rayonlarda azərbaycanlılar yaşayan kəndləri işğal edən, qırğınlar, soyqırımlar törədən ermənilər SSRİ-nin dağılmasından sonra işğal planını yeni fazaya keçirdilər. Güclü himayəçilərə arxalanan ermənilər Dağlıq Qarabağı və ona bitişik 7 rayonu (Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın) işğal etdilər. Beləliklə, Azərbaycan ərazilərinin 20 faizi işğal edilmiş, 20 mindən çox insan qətlə yetirilmiş, 50 mindən artıq adam yaralanmış və şikəst olmuşdur. Bir milyondan artıq insan 25 ildir ki, qaçqın və məcburi köçkün şəraitində yaşayaraq Ermənistanın azərbaycanlılara qarşı etnik təmizləmə və soyqırım siyasətinin qurbanı olmuş, elementar insan haqlarından məhrum edilmişdir.

İşğal nəticəsində 900-dən artıq yaşayış məntəqəsi talan edilmiş, yandırılmış və dağıdılmış, 6 min sənaye, kənd təsərrüfatı müəssisəsi və digər obyektlər məhv edilmiş, ümumi yaşayış sahəsi 9 mln m?-dən artıq olan 150 min yaşayış binası dağıdılmış, 6 4366 sosial-mədəni obyekt, 695 tibb ocağı məhv edilmişdir. Ermənistan Respublikası "Hərbi münaqişələr zamanı mədəni sərvətlərin qorunması haqqında" Haaqa Konvensiyasının və "Mədəni sərvətlərin qeyri-qanuni dövriyyəsi haqqında" Paris Konvensiyasının müddəalarını kobudcasına pozaraq Azərbaycanın mədəni sərvətlərini talamaqla məşğuldur. İşğal edilmiş ərazilərdə kənd təsərrüfatı sahəsi, su təsərrüfatı, hidrotexniki qurğular, bütün nəqliyyat və kommunikasiya xətləri tam sıradan çıxarılmışdır. Azərbaycanın civə, obsidan və perlit ehtiyatlarının hamısı, tikinti və üzlük materiallarının 35-60 faizi, meşə fondunun 23,8 faizi, su ehtiyatlarının 7,8 faizi və s. işğal olunmuş ərazilərdə qalmışdır. Orada həmçinin 2 qoruq, 3 yasaqlıq, 3 iri su anbarı da yerləşir. Hərbi təcavüz zamanı ələ keçirilmiş Azərbaycan ərazilərində 927 kitabxana (kitab fondu 4,6 milyon nüsxə), 464 tarixi abidə və muzey, 100-dən çox arxeoloji abidə, 6 dövlət teatrı və konsert studiyası dağıdılmışdır. Talan edilmiş muzeylərdən 40 mindən çox qiymətli əşya və nadir eksponat oğurlanmışdır.

Belə ki, Kəlbəcər Tarix Diyarşünaslıq Muzeyi yerlə yeksan olunduqdan sonra muzeyin ekspozisiyasına daxil olan nadir qızıl və gümüş zinət əşyaları, ötən əsrlərdə toxunmuş xalçalar Ermənistana daşınmışdır. Şuşadakı Tarix Muzeyinin, Ağdamdakı Çörək Muzeyinin, Zəngilandakı Daş Abidələr Muzeyinin də aqibəti belə olmuşdur. Oğurlanmış və məhv edilmiş bu tarixi-mədəni sərvətlərin dəyərini müəyyənləşdirmək, pulla qiymətləndirmək mümkün deyildir. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul edilmiş 822, 853, 874, 884 saylı qətnamələrində Azərbaycan Respublikasının ərazi bütövlüyünün tanınmasına və işğal olunmuş Azərbaycan ərazilərinin qeydşərtsiz azad edilməsi tələblərinə baxmayaraq, Ermənistan Respublikası bu gün də işğalçılıq siyasətini davam etdirir. Minsk qrupu ATƏT-in Nazirlər Şurasının 1992-ci ilin martında Helsinkidə keçirilmiş görüşündə yaradılmışdır.Azərbaycan, Ermənistan, Rusiya Federasiyası, Amerika Birləşmiş 7 Ştatları, Fransa, Almaniya, Türkiyə, Belarus, Finlandiya və İsveç qrupun üzvləridir. 1996-cı ilin dekabrından onun üçhəmsədri var - Rusiya, ABŞ və Fransa. Qrupun əsas vəzifəsi Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. Bu günə kimi ATƏT-in Minsk qrupunun fəaliyyəti heç bir nəticə verməmişdir. 1994-cü ildə ("Bişkek protokolu") atəşkəs haqda sənəd imzalanmış, mayın 11-dən 12-nə keçən gecə atəşkəs rejimi qüvvəyə minmişdir.

Prezident İlham Əliyev: "Məsələnin həlli çox sadədir - erməni silahlı birləşmələri işğal edilmiş torpaqlardan çıxmalıdır, Azərbaycan vətəndaşları öz doğma torpaqlarına qayıtmalıdırlar, ondan sonra regionda sülh və təhlükəsizlik yarana bilər. O ki, qaldı xalqların öz müqəddəratını təyin etməsi prinsipinə, bu prinsip ölkələrin ərazi bütövlüyünü pozmamalıdır və Helsinki Yekun Aktında məhz bu ifadələr öz əksini tapır. Bütün münaqişələr ölkələrin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır" deməklə həm problemin həlli yolunu, həm də prinsiplərini bir daha bəyan etdi. Atəşkəs elan edilməsinə baxmayaraq Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində minaatanlardan və iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini dəfələrlə pozmuşlar. Erməni təcavüzkarlarının növbəti atəşkəs rejimini pozmaq cəhdi 2016-cı il aprel ayının 1-dən 2-nə keçən gecə baş verdi.

Gün ərzində Azərbaycanın cəbhə boyu mövqeləri və yaşayış məntəqələri erməni silahlı qüvvələri tərəfindən güclü artilleriya atəşinə məruz qaldı. Nəticədə2 dinc sakin ölmüş, 10 nəfər yaralanmış, infrastruktur obyektləri zədələnmiş, evlər dağıdılmış, əhalinin şəxsi təsərrüfatına və əmlakına xeyli ziyan dəymişdir.Azərbaycan tərəfindən bu hücumun qarşısının alınması, mülki əhalinin təhlükəsizliyinin qorunması məqsədilə 8 Azərbaycan Silahlı Qüvvələrinin komandanlığı tərəfindən Ağdərə-Tərtər-Ağdam və Xocavənd-Füzuli istiqamətində təxirə salınmaz cavab tədbirləri həyata keçirilmiş,Goranboy rayonuna və Naftalan şəhərinə təhlükə yarada biləcək Talış kəndi ətrafındakı yüksəkliklər, Seysulan məntəqəsi və Füzuli rayonu istiqamətində yerləşən "Lələtəpə" adlandırılan yüksəklik düşməndən azad edilmişdir. Döyüşlər nəticəsində Azərbaycan Silahlı Qüvvələri Ağdərə-Madagiz istiqamətində yolların nəzarətdə saxlanılmasını təmin etmişdir. Məlumata görə hərbi əməliyyatlar zamanı ermənilərə məxsus 30 tank, 15-dək artilleriya qurğusu və möhkəmləndirilmiş mühəndis qurğuları məhv edilmiş, 320 döyüşçüsü öldürülmüş və 500-dən artıq döyüşçü yaralanmışdır. Aprelin 5-də saat 12.00-dan etibarən Azərbaycan-Ermənistan qoşunlarının təmas xəttində tərəflərin razılığı ilə əməliyyatlar dayandırılmışdır. Razılaşma Rusiyanın paytaxtı Moskva şəhərində Azərbaycan və Ermənistan silahlı qüvvələrinin baş qərargah rəisləri arasında əldə edilmişdir. Azərbaycan Silahlı Qüvvələrinin bölmələri azad edilmiş torpaqlarda möhkəmləndirmə işlərini həyata keçirmişlər.

Azərbaycan Ordusunun həyata keçirdiyi uğurlu əks-hücum hərbi əməliyyatı nəticəsində erməni işğalından azad edilmiş Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində insanların təhlükəsiz yaşaması mümkün olmuşdur. Bununla da, tarixən burada yaşamış dinc əhalinin öz doğma yurdlarına qayıtması üçün Azərbaycan Silahlı Qüvvələrinin tam nəzarətinə keçmiş həmin ərazilərdə əsaslı yenidənqurma işlərinin başlanmasına şərait yaranmışdır. Bu məqsədlə ölkə başçısı cənab İlham Əliyev 24 yanvar 2017-ci il tarixində "İşğaldan azad edilmiş Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin bərpası ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalamışdır. Sərəncama əsasən Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin bərpası ilə bağlı görüləcək işlər çərçivəsində birinci mərhələdə 50 fərdi yaşayış evinin, məktəb binasının və müvafiq infrastrukturun tikintisi üçün 9 Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə ilkin olaraq 4,0 (dörd) milyon manat ayrılmışdır.

Tarixə "Dördgünlük müharibə" adı ilə düşən aprel döyüşləri gənclərin hərbi vətənpərvərlik ruhunu daha da yüksəltdi. Aprel döyüşlərində qazanılan qələbə xalqımızın orduya olan inamını artırdı. Ermənilər Azərbaycan əsgərinin qarşısında diz çöküb məğlub oldular. Bu gün əli silah tutan hər kəs vətən uğrunda döyüşməyə hazırdır. Son döyüşlər bir daha göstərdi ki, ordumuzun potensialı böyükdür. Bu uğurlu döyüşlər Silahlı Qüvvələrimizin gələcəkdə qazanacağı qələbələrin yalnız başlanğıc nöqtəsidir.

***Vahid Ömərov***
***Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# Səs

6 may

Son səhifə

## Bundesliqa matçları bu tarixdə başlayır!



Futbol üzrə Almaniya Bundesliqasında bu mövsümün bərpa tarixi müəyyənləşib. Nüfuzlu "Reuters" agentliyi xəbər verir ki, futbol matçlarının mayın 15-i bərpasına qərar verilib. Bu qərarın bu gün Almaniya hökumətinin iclasında rəsmi olaraq elan ediləcəyi bildirilib. Matçların koronavirusun yayılmasının qarşısını almaq üçün boş tribunalar önündə keçiriləcəyi vurğulanıb. Qeyd edək ki, Almaniya çempionatı martda koronavirus səbəbindən təxirə salınıb.

## 20 min manata narkotik satmaq istəyən şəxs saxlanıldı

Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşları tərəfindən həyata keçirilən növbəti əməliyyat zamanı narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə məşğul olan şəxs saxlanılıb. Bu barədə SİA-ya Daxili İşlər Nazirliyi (DİN) Mətbuat Xidmətindən məlumat verilib. Baş İdarə əməkdaşlarının Astara rayonunda həyata keçirdikləri tədbir zamanı rayonun Səncərədi kənd sakini Ramail Fərəcov tutulub. Onun üzərində şəxsi axtarış aparılan zaman yüksək təsiredici xassəyə malik psixotrop maddə olan 1 kiloqram 145 qram metamfetamin aşkar edilərək götürülüb. Saxlanılan şəxs ifadəsində narkotik vasitələri satmaq niyyəti ilə əldə etdiyini bildirib. Araşdırma zamanı müəyyən edilib ki, Ramail Fərəcov psixotrop maddə olan metamfetamini 20 min manata satmaq istəyib.



Faktla bağlı Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılıb. Ramail Fərəcov digər cinayət əlaqələrinin müəyyən edilməsi istiqamətində əməliyyat-istintaq tədbirləri davam etdirilir.

## Hollivud ulduzu açıq kosmosda film çəkəcək



***Təhlükəli səhnələrin çəkilişində dublyordan istifadə etmədən özünü tez-tez riskə atması ilə tanınan məşhur aktyor Tom Kruz inanılmaz layihəsini həyata keçirməyə çalışır.***

Belə ki, Hollivud ulduzu kosmosda film çəkməyi planlaşdırır. "HaberGlobal"ın məlumatına görə, bunun üçün o, İlon Maskın "Space X" şirkətinin və NASA agentliyinin köməyindən yararlanacaq. Hələ hazırlıq mərhələsində olan filmlə bağlı çox məlumat açıqlanmır. Filmin necə çəkiləcəyi, mövzunun nə olacağı, rejissor və ssenari müəllifinin adları, həmçinin çəkiliş heyətinin kimlərdən təşkil olunacağı açıqlanmayıb.

## Göz gigiyenası



Uzun müddət mütaliə etmək, telefon, kompüter və planşetlərdən istifadə etmək görmə qabiliyyətinə çox mənfi təsir göstərir. Həmin təsirləri aradan qaldırmaq üçün, ilk növbədə, göz gigiyenasına əməl etmək və göz idmanı ilə məşğul olmaq məsləhətdir.

Respublika Neyrocərrahiyyə Xəstəxanasının həkim-oftalmoloqu Gültəkin Məmmədova AZƏRTAC-a bildirib ki, göz idmanı əzələlərin möhkəmlənməsinə kömək edir: "Gözün daxilində əzələlər var və onların uzun müddət eyni vəziyyətdə qalması görmə qüsurlarına aparıb çıxarır. Açıq havada olanda gözün yığılmış əzələləri boşalmış olur və uzağa baxanda göz əzələləri istirahət edir".

Həkimlərin dediyinə görə, həmin göz hərəkətlərinə mütəmadi əməl etmədikdə müəyyən problemlər baş verir: "Xəstələr çox vaxt şikayətlənirlər ki, müəyyən vaxt işləyəndən sonra başını qaldıranda uzağı dumanlı görürlər. Onlar, həmçinin gözlərdə sulanma, alın nahiyəsində ağrılardan da şikayət edirlər. Ona görə də profilaktika üçün göz idmanı etmək məsləhətdir. Məsələn, belə bir asan qayda var: 20 dəqiqə işləyəndən sonra 20 saniyə 20 addım məsafəsinə baxmaq məsləhətdir". Gimnastik göz hərəkətlərinə yaşından asılı olmayaraq hər kəs riayət etməlidir.

## Yerevanda 40 yaşlı erməni əvvəlcə uşaqlarını, sonra özünü öldürdü



Ermənistan paytaxtında dəhşətli qətl hadisəsi törədilib. Xezerxeber.az xarici KİV-lərə istinadla xəbər verir ki, Yerevanda 40 yaşlı kişi 8 yaşlı oğlunu və 5 yaşlı qızını yaşadıqları binanın doqquzuncu mərtəbəsindən atıb. Sonradan o, özü də intihar edib.

Qətlin və intiharın səbəbləri açıqlanmasa da, hadisənin ölkədəki sosial-iqtisadi vəziyyətlə əlaqədar olduğu ehtimal edilir. Həmin şəxsin həyat yoldaşının onu tərk etdiyi bildirilir.

## Mobil tətbiqlə bu smart kartların balansını artırmaq olacaq

May ayının sonunadək "Azərişıq" ASC-nin mobil tətbiqi vasitəsilə elektrik sayğacların smart kartların balansını artırmaq mümkün olacaq. SİA xəbər verir ki, abonentlər bu əməliyyatları smartfonlar üçün nəzərdə tutulan xüsusi kart oxuyucular vasitəsilə apara biləcəklər. Cihazlar artıq sifariş olunub və may ayının 12-dək ölkəyə gətiriləcəklər. Daha sonra xidmət sınaqdan keçirilərək istifadəçilərin ixtiyarına veriləcək. Satışa çıxarılacaq kart oxuyucuların qiyməti 18-20 manat civarında olacaq. ASC-dən əlavə olaraq bildirilib ki, yeni xidmət yalnız istismarda olan 300 min ədəd "PoudRaad" şirkətinin sayğaclarının SMART-kartlarına şamil olunacaq.

## Koronavirus əllərdən də keçə bilər?



Niderlandlı alimlər koronavirusun insan bağırsağında çoxala bildiyini aşkar edib.
"Eurekalert" xəbər verir ki, mütəxəssislər insan bağırsağı modelinin hüceyrələrinə koronavirus əlavə ediblər. Nəticədə, infeksiyanınbu hüceyrələrdə sürətlə çoxalması təsbit edilib. Alimlər qeyd edir ki, koronavirusa yoluxanlarda qaytarma və diareya kimi simptomlar müşahidə edilir. Beləliklə, mütəxəssislər xəstəliyin çirkli əllər vasitəsi ilə keçə biləcəyini istisna etmirlər.

***Baş redaktor:***

**Bəhruz Quliyev**

***Baş redaktorun müavinləri:***

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**